

Arıçılıq təsərrüfatları yeni standartlar səviyyəsində qurulmalıdır

SƏH. 2 | ARIÇILIQ



SƏH. 5 | GÖRÜŞ

Эва-Мария Аух: Главное достояние Азербайджана это люди!

İQTİSADİYYAT qəzeti 15 il

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№24 (818)
20 - 26 İyun
2014-cü il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Yunanıstan-Azərbaycan əlaqələri müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Yunanıstanda dövlət səfərində olmuşdur.

Altı min illik tarixi olan Afina dünyanın ən qədim şəhərlərindən biridir. Şəhər müdriklik ilahəsi Afinanın adını daşıyır. Bütün dünyada azadlıq, demokratiya və incəsənətin rəmzi hesab olunan Afinaya xüsusi yaraşıq verən, şəhərin özəlliyini artıran tarixi məkanlar arasında Akropol xüsusi yer tutur. "Yuxarı şəhər" mənasını verən və Afinanın rəmzi hesab olunan bu müqəddəs qaya qədim sivilizasiya ilə müasirliyi bir araya gətirir.

Afinanın mərkəzində hündürlüyü 156 metrə çatan qayalıq meydançada yerləşən, dünya tarixinin və mədəniyyətinin şah əsərləri sırasında olan Akropol 3 min illik tarixə malik memarlıq abidələri ilə zəngindir və sanki muzeyi xatırladır. Qədim Afinanın həm dövlət, həm də dini mərkəzi sayılan Akropolun qorunmasına afinalılar bütün dövrlərdə ciddi fikir vermişlər. Hətta Perikl zamanında Akropolun bərpası üçün xeyli vəsait ayrılmış, tikintiyə minlərlə insan cəlb edilmişdir. İndiyə qədər gəlib çatan bir çox tarixi abidələr də məhz elə o dövrdə inşa olunmuşdur. Akropolun əhəmiyyətini artıran mühüm amillər sırasında təbii ki, dünya memarlığının nadir inciləri olan Panteon, Afina və Erektion məbədləri də vardır ki, bu tarixi abidələrin böyük hissəsi günümüzə qədər gəlib çatmışdır. Məsələn, yunan memarlığının ən böyük əsəri hesab edilən Panteon məbədinin xarici görünüşündə istifadə olunan heykəltəraşlıq nümunələri yunan sənətinin ən yüksək zirvəsi kimi qəbul edilir.

Akropol öz möhtəşəmliyi ilə onu görməyə gələn hər bir turistin qəlbində unudulmaz hisslər yaradır.



Yunanıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da naməlum əsgərin məzarını ziyarət etmişdir.

İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Afinada rəsmi qarşılanma mərasimi olmuşdur.

İyunun 16-da Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilmişdir. Əlaqələrimizin bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilmişdir. Azərbaycan-Yunanıstan əməkdaşlığının Avropa İttifaqı çərçivəsində də önəmi vurğulanmışdır. Prezident İlham Əliyevin Yunanıstana dövlət səfərinin ikitərəfli münasibətlərin daha da inkişafı baxımından əhəmiyyəti bildirilmişdir.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Yunanıs-tan sənədlərinin imzalanması mərasimi olmuşdur.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mətbuata bəyanatlarla çıxış etmişlər.

İyunun 16-da Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras ilə görüşü olmuşdur.

Görüşdə iqtisadi sahədə, o cümlədən energetika, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Afinada Yunanıstan Respublikası parlamentinin sədri Vanqelis Meimarakis ilə görüşmüşdür.

Vanqelis Meimarakis bu səfərin parlamentlərarası əlaqələrin dərinləşməsinə töhfə verəcəyini vurğulamışdır.

Parlamentin sədri, həmçinin Azərbaycan Prezidentinin Yunanıstana dövlət səfərinin ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin inkişafı baxımından əhəmiyyətini qeyd etmişdir.

Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin ölkələrimiz üçün çox önəmli olduğunu demiş, bu əlaqələrin ümumi əməkdaşlığımızın inkişafında mühüm yer tutduğunu bildirmişdir. Sonda Vanqelis Meimarakis Yunanıstan parlamentinin qızıl medalını Prezident İlham Əliyevə təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Yunanıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Evangelos Venizelos ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri, enerji, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Yunanıstana dövlət səfəri çərçivəsində bu ölkənin parlamentində əsas müxalifət olan Demokratik Solçular Birliyinin lideri Aleksis Tsipras ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Yunanıstan münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

İyunun 16-da Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Baş naziri Antonis Samarasın yüksək səviyyəli iş adamları ilə görüşü olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etmişdir.

Sonra mövzu ətrafında müzakirələr olmuşdur. Yunanıstanın tanınmış şirkətlərinin rəhbərləri və nümayəndələri təmsil etdikləri müəssisələr haqqında məlumat vermişlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 17-də Yunanıstana dövlət səfəri başa çatmışdır.



# Avropa İttifaqı ilə əlaqələr bizim üçün prioritetdir

**İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizdə səfərdə olan Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun təkbətək görüşü olmuşdur.**

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmışdır. Energetika sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirilmişdir. Joze Manuel Barrozunun respublikamıza səfərinin Azərbaycan-Avropa İttifaqı münasibətləri baxımından önəmi qeyd edilmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

İyunun 14-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun iştirakı ilə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Azərbaycan Respublikasının İttifaqın proqramlarında iştirakının ümumi prinsipləri haqqında çərçivə sazişi üzrə bir tərəfdən Azərbaycan, digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişinin Protokolu imzalanmışdır.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu mətbuata bəyanatlarla çıxış etmişlər.

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Səngəçal terminalında olmuşlar.

Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun rəhbərlik etdiyi nümayəndə heyəti Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzi ilə tanış olmuşdur.

Qonaqlara respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu iyunun 14-də Dağüstü Parkda, Heydər Əliyev Mərkəzində olmuşlar.

**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




Üstünlükləri:

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikasi və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir apparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Cavadxan küç., 24
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) / (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az

# Yaşayış evləri və mənzillərin icbari sığortası mexanizmi dəyişəcək



Azərbaycanın Maliyyə Nazirliyi daşınmaz əmlakın icbari sığortası mexanizmini dəyişməyi nəzərdə tutur.

Bunu jurnalistlərə verdiyi müsahibəsində maliyyə naziri Samir Şərifov deyib.

"Bizim qanunvericilikdə minimal həddə ilə evlərin sığortalanması nəzərdə tutulub. Lakin onu da qeyd etməliyəm ki, mənzil və ev sahibləri bu sığorta növündən o qədər də faydalanmırlar. Ona görə, biz daha effektiv və praktiki baxımından tətbiqi asan olan mexanizm barədə fikirləşirik. Bu məsələdə ehtiyatla davranırıq. İlk növbədə əhalinin maddi imkanlarını nəzərə almalıyıq",- nazir bildirib.

Qeyd edək ki, hazırda Azərbaycan vətəndaşları yaşayış evlərini və mənzillərini Bakı şəhərində 50 manat ödəməklə 25000 manatlıq, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 40 manat ödəməklə 20 min manatlıq, digər yaşayış məntəqələrində isə 20 manat ödəyərək 15 min manatlıq icbari sığorta etdirə bilərlər.

# "Sığorta şirkətlərimiz xarici şirkətlər ilə rəqabətdən çəkinmirlər"

"Azərbaycanın sığorta şirkətləri xarci sığorta şirkətlərinin yerli bazara daxil olmasından çəkinmirlər".

Bu sözləri bu gün jurnalistlərə verdiyi müsahibə zamanı maliyyə naziri Samir Şərifov deyib.



Nazir Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital payının son həddinin müəyyən olunmasına münasibət bildirərək qeyd edib ki, "Bizim sığorta bazarımız açıqdır, hər hansı bir xarici şirkət iştirak edə bilər. Biz hesab edirik ki, Azərbaycanın sığorta şirkətləri artıq kifayət qədər təcrübə toplayıblar, kifayət qədər onların peşəkar kadrları və kapital bazası mövcuddur. Ona görə, onlar daxili bazarda xarici şirkət ilə rəqabətdən çəkinmirlər".

Qeyd edək ki, qanunvericiliyə edilmiş son dəyişikliklər ilə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində xarici kapital payının son həddi müəyyən olunmuşdur. **Xarici kapital payının son həddi aşağıdakı kimi müəyyən edilib:**

- 2015-ci il 01 yanvar tarixinədək – 50 %;
- 2015-ci ilin 01 yanvar tarixindən etibarən – 70 %;
- 2016-cı ilin 01 yanvar tarixindən etibarən – 85 %;
- 2017-ci ilin 01 yanvar tarixindən etibarən – 100 %.

# Azərbaycanın sığorta bazarı 10,8 % artıb

Bu ilin yanvar-may aylarında Azərbaycandakı 28 sığorta şirkətinin xətti ilə 186,9 milyon manat sığorta haqqı toplanıb.

Bunu Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Orxan Bayramov bu gün jurnalistlər ilə görüşündə bildirib.

O qeyd edib ki, yığımlar ötən ilin eyni dövrü ilə müqayisədə 18,2 milyon manat və ya 10,8% çoxdur.

"2014-cü ilin ilk 5 ayında sığorta şirkətlərinin həyata keçirdiyi sığorta ödənişlərinin məbləği isə 55,2 milyon manat təşkil edib. Bu da 2013-cü ilin eyni dövrünə nisbətən 6,3 milyon manat və ya 13% çoxdur. Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqı müqabilində 29,5 manat ödəniş həyata keçirilib. Bu göstərici ötən ilin yanvar-may aylarında 29 manat olub",- ASA-nın sədri bildirib.

# Azərbaycana kərə yağı idxalı kəskin artıb



2014-cü ilin yanvar-may ayları ərzində Azərbaycana 10,6 milyon ABŞ dolları dəyərində kərə yağı idxal olunub.

Bu ilin yanvar-may ayları ərzində 2013-cü ilin ilk 5 ayının idxalına nisbətən kərə yağı idxalı 63,5% artıb. Belə ki, ötən ilin 5 ayı ərzində xaricdən 6,49 milyon dollarlıq kərə yağı alınmışdı. Bu da 2012-ci ilin yanvar-may ayları ilə müqayisədə 57,6% az idi.

# Sement idxalı azalır



Azərbaycana sement idxalı azalmağa başlayıb.

Dövlət Gömrük Komitsinin məlumatına görə, 2014-cü ilin yanvar-may ayları ərzində Azərbaycan 49,83 milyon ABŞ dolları dəyərində sement idxal olunmuşdur ki, bu da ötən ilin anoloji dövrü ilə müqayisədə təxminən 19% azdır. Belə ki, ötən ilin ilk 5 ayı ərzində 61,56 milyon dollarlıq sement idxal olunmuşdu.



# "Aqrar-sənaye kompleksinin inkişafı strategiyası" hazırlanıb

"Aqrar-sənaye kompleksinin inkişafı strategiyası" hazırlanaraq ilkin layihəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasına təqdim olunmuşdur.

Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən bildirilib.

"Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il tarixli 221 nömrəli "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının 1.1-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

# "Delta Group" arıçılıq kompleksi yaradır

"Delta Group" MMC Qax rayonunun Ləkit kəndi ərazisində arıçılıq kompleksi yaradır.




Rayon arıçılar birliyinin sədri Bədrəddin Həsrətov bildirmişdir ki, regionda bənzəri olmayacaq bu kompleksdə arı pətəyi, çərçivə və digər avadanlığın hazırlanması üçün taxta, arı mumundan şan təbəqəsinin hazırlanması üçün arı şanı sexləri və digər istehsal sahələri fəaliyyət göstərəcəkdir. Kompleksin damazlıq bölməsində ana arılar və arı ailələri yetişdiriləcəkdir. Ümumiyyətlə, müəssisədə 11 adda qablaşdırılmış arıçılıq məhsulları, o cümlədən bal, çiçək tozu, arı südü, orqanik bal və digər məhsullar istehsal olunacaqdır.

Kompleksdə turistlərin yerləşməsi və qalması üçün "Bal evi" də fəaliyyət göstərəcəkdir. Burada turistlər bal məhsulları ilə əyani tanış olacaq, xüsusi monitorlarda balın hazırlanması prosesini izləyəcəklər.

Gələcəkdə kompleksdə əlavə bölmələrin - arı pətəyinin içərisindəki hava ilə ağciyərin müalicəsi, arı mühitində arı energetikası ilə müalicə və bioloji fəal əlavələr istehsalı bölmələrinin yaradılması da nəzərdə tutulmuşdur.

KİVDF

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.***

# Arıçılıq təsərrüfatları yeni standartlar səviyyəsində qurulmalıdır



Azərbaycan iqtisadiyyatının daha da möhkəmləndirilməsinin mühüm istiqamətlərindən biri aqrar bölmədə azad sahibkarlığın inkişaf etdirilməsi, bu sahədə bütün mövcud imkanların hərəkətə gətirilməsidir. Dövlətimizin strateji hədəfi budur ki, heç bir sahə, heç bir fəaliyyət növü diqqətdən kənarda qalmamalıdır. Ölkəmizdə arı məhsullarına böyük tələbatın olmasına baxmayaraq, uzun illər bu sahəyə lazımi diqqət göstərilməmişdir. Lakin son illər arıçılığın inkişafı ilə bağlı bir sıra tədbirlər görülmüşdür. Belə ki, «Arıçılıq haqqında Qanun» qəbul edilmiş və bu sahənin inkişafını təmin edən proqram öz təsdiqini tapmışdır. Görülən tədbirlər nəticəsində arıçılıqla məşğul olan təsərrüfatların işində bir canlanma yaranmışdır. Onlara verilən güzəştli kreditlərin və digər yardımların həcmi genişləndirilmişdir. Lakin bütün problemlərin həll olunduğundan danışmaq hələ tezdir. Azərbaycanda arıçılığın inkişafında maliyyə təminatı ilə yanaşı, bir sıra digər tədbirlərin görülməsinə də ehtiyac duyulur. Ölkəmizdə fəaliyyət göstərən kiçik təsərrüfatların işi hələ ki yeni standartlar səviyyəsində qurulmayıb, bu sahədə lazımi bilgiyə malik olan mütəxəssislərin sayı azdır, arıçılıq təsərrüfatlarının strukturlaşması prosesi çox ləng gedir. Bugünkü söhbətimizdə bu problemlər barədə danışacağıq.

Müsahibim həkim-nevropatoloq, apiterapevt, Gəncədə fəaliyyət göstərən **«Apifarm» firmasının təsisçisi və rəhbəri Könül Ağayevdir.** O, ötən əsrin 90-cı illərində Moskvada apiterapiya üzrə tanınmış alim, professor Mixail Frenxelin tələbəsi olmuş, eyni zamanda, Almaniyada və Türkiyədə müvafiq sahə üzrə ixtisas kursları keçmişdir. O, bir sıra beynəlxalq simpozium və konfransların iştirakçısı olmuş, apiterapiya üzrə dərslik və dərs vəsaitlərinin müəllifidir. Diplomlar və fəxri fərmanlarla təltif olunmuşdur. Könül Ağayev Cənubi Qafqazda apiterapiya üzrə tədqiqat aparan və təcrübi işlər həyata keçirən çox az sayda yüksək ixtisaslı mütəxəssislərdən biridir. Ona ilk olaraq bu sualla müraciət edirik:

**– Könül həkim, Azərbaycanda arı deyəndə ancaq bal yada düşür. Təsərrüfatçı balı tədarük etdikdən sonra qalan məhsullarla necə davranacağını bilmir. Halbuki, həmin məhsulları təkrar istehsala verməklə balın özündən qat-qat artıq qazanc əldə etmək olar, elə deyilmi?**

– Azərbaycanda yer kürəsində olan 11 əsas iqlim tipindən 9-u müşahidə olunur. Respublikamızda 125 vəzifəyə mənsub 4100-dən artıq bitki növü var. Böyük və Kiçik Qafqaz dağları ilə əhatələnməsi, günəş şüasının bolluğu, torpağın münbitliyi hesabına Azərbaycanda bitki örtüyü çox güclü inkişaf edir, çiçəkləri iri, tacları dərin olur. Belə çəmənliklər ballı bitkilərlə daha zəngindir. Ölkəmizdə arıçılığın tarixi II-III əsrlərə gedib çıxır. Azərbaycan dünyada yeganə sayılan uzunxortumlu boz Qafqaz arısının vətənidir. Bu arı cinsi Daşkəsən rayonunun Qabaqtəpə kəndi ərazisində yayılıb. Xortumu uzun olduğuna görə iri taclı dağ çiçəklərindən şirə çəkə bilirlər. Alınan bal efir yağları ilə zəngin olur və güclü müalicəvi əhəmiyyətə malikdir. Bu arılar çox sakit və dinc olurlar, yağışlı, çiskinli havalarda da işləyə bilirlər, beçə verməyə meyillidirlər. Məhz bu xüsusiyyətlərinə görə uzunxortumlu arılara xarici ölkələrdə böyük maraq var. Onlar bəzi hallarda xaricə satılır ki, buna qətiyyən yol vermək olmaz. Əksinə, respublikamızın ayrı-ayrı bölgələrində damazlıq təsərrüfatları yaradılmalı və bu cins arıların təsərrüfatçılar arasında geniş yayılmasına nail olunmalıdır. Bir məsələni də qeyd etmək yerinə düşərdi. Qabaqtəpə arısı akupunktura (arı sancması) müalicəsində əvəzolunmaz rol oynayır. Belə ki, arıların xortumu uzun olduğuna görə, arı zəhəri təbii yolla, parçalanmadan istənilən nöqtəyə birbaşa yeridilir və orqanizmə daha effektiv təsir göstərir. Dərman preparatlarının təsiri olmayan xəstəliklərdə arı sancması ilə müalicə müsbət nəticə verir. Bir çox xəstəliklərin, o cümlədən revmatizm, rudikulit, astma, osteoxondroz, bronxit və s müalicəsində geniş istifadə edilir. Mən də öz fəaliyyətimdə bu üsuldan geniş istifadə edirəm. Arı sancması ilə müalicənin bir özəlliyi də ondadır ki, bu həm istənilən aktiv nöqtəni qıcıqlandırır, həm də qana sorularaq orqanizmin immun sistemini möhkəmləndirir. Arı məhsullarının tibbi bioloji xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, arının 7 məhsulu var: arı südü, propolis, çiçək tozu,







perqa-güləm, mum, arı zəhəri və bal. Səkkizinci məhsul kimi arının özünü göstərmək olar. Belə ki, qurudulmuş arı cəsədindən ekstratlar hazırlanır və xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur. Arının bütün məhsulları ayrı-ayrılıqda bioloji aktiv maddə olub, xammal kimi farmokologiyada, kosmetologiyada, parfümeriyada və qida sənayesində istifadə edilir. Arı məhsulları 180 adda dərman preparatlarının hazırlanmasında əsas və əlavə komponent kimi iştirak edir. Arı məhsullarından alınan preparatlardan, əsasən, revmatizm, oynaq xəstəlikləri, mədə-bağırsaq xəstəlikləri, ürək-damar xəstəlikləri və s. geniş istifadə olunur. Bu məhsulların bir xüsusiyyəti də budur ki, onlar daxilə qəbul edildikdə orqanizmdə olan patoloji prosesləri aradan qaldırır və heç nəyə zərəri olmadan orqanizmə normatik təsir göstərir: qan təzyiqini, şəkər mübadiləsini, ürək tonusunu, mədə turşuluğunu normallaşdırır, immun sistemini gücləndirir. Bundan başqa, müasir farmakologiyada və qida əlavələri istehsalında bir yenilik də baş vermişdir. Belə ki, bitki ekstraktları bala qarışdırılaraq sirop şəklində arıya yedizdirilir və vitaminləşdirilmiş bal alınır. Bu yolla 185 adda bal almaq mümkündür. Rəhbərlik etdiyim «Apifarm» firmasında indiyədək 40 adda vitaminləşdirilmiş bal istehsal edə bilmişik. Satışla bağlı problemlərimizi həll edə bilsək, bunların sayını artırmaq olar. Adətən, çiçək mövsümü qurtardıqdan sonra yem qıtlığı yaranan zaman balın bu üsulla alınmasına üstünlük verilir. Məsələn, itburnu ilə çuğundur şirəsini qarışdırıb arıya veririk və bu yolla xüsusi növ bal alırıq. Bu bal C vitamini ilə zəngindir və qan azlığı zamanı istifadə olunur. Hər növ baldan təyinatı üzrə istifadə etməklə bir çox xəstəlikləri təbii yollarla müalicə etmək olar. Bu cür məhsullar həm də ekoloji cəhətdən təmiz qidadır və orqanizmə müsbət təsir göstərir.

Məsələ burasındadır ki, uzun illər keçməsinə baxmayaraq, hələ ki istehsalın həcmini genişləndirmək, xarici bazarlara çıxmaq yolunda uğurlu addım ata bilməmişik. Əsas problem budur ki, iş adamlarının bu sahəyə marağı azdır, təsərrüfatçılar isə təkbaşına bu işin öhdəsindən gələ bilməzlər. Burada qablaşdırmadan tutmuş reklam işlərinə qədər bütün proseslər müasir standartlar səviyyəsində qurulmalıdır. Bir dağ kəndində arı saxlayan şəxs belə mürəkkəb işlərin öhdəsindən necə gələ bilər? Görünür, arıçılığın rentabelli sahəyə çevrilməsi, bu sahəyə marağın artırılması istiqamətində digər zəruri tədbirlər görülməlidir.

**– Digər tədbirlər dedikdə nələri nəzərdə tutursunuz?**

– Burada çox məsələlərdən danışmaq olar. Fikrimi yığcam ifadə etməli olsam, aşağıdakı tədbirlərin görülməsini önə çəkərdim.

İlk növbədə, arıçılıq bir elm sahəsi kimi öyrənilməli, tədris olunmalı və bu sahədə geniş tədqiqat işləri aparılmalıdır. Bu işdə dünyanın qabaqcıl təcrübəsindən istifadə olunmalıdır. İkinci mühüm məsələ arı məhsullarının tədarükü, istehsalı, emalı və satışı yeni standartlar səviyyəsində təşkil olunmalı, müasir tipli modern təsərrüfatlar yaradılmalıdır. Üçüncüsü, arıçıların hüquqları qorunmalı, saxta məhsulların bazardan çıxarılması mexanizmi işlənib hazırlanmalıdır. Dördüncüsü, hazır məhsulun keyfiyyət standartlarını yoxlayan xüsusi laboratoriyalar açılmalı, həmin laboratoriyalar müasir cihaz və avadanlıqlarla təchiz olunmalı və yüksək peşə standartlarına sahib olmaq üçün mütəxəssislərimiz xarici ölkələrdə kurslar keçməlidirlər. Nəhayət, beşincisi arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə güzəştli kreditlərin, subsidiya və yardımların həcmi genişləndirilməli, bilavasitə istehsalla məşğul olanlara verilən kreditlər aşağı faizli və uzunmüddətli olmalıdır.

**– Siz həm də bitki aləmi ilə də yaxından maraqlanırsınız. Güllərlə, çiçəklərlə müalicə az qala dəb halını alıb. Bəzən bu işlə qeyri-peşəkar, səriştəsiz və naşı insanlar da məşğul olurlar. Bu barədə sizin fikirlərinizi bilmək istərdik...**

– 25 ildən artıqdır ki, arı məhsullarının xüsusiyyətlərini öyrənirəm. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, bu sahədə yeni standartların tələblərinə uyğun istehsal sahəsi quran yeganə mütəxəssisəm. Söhbət təkcə Azərbaycandan yox, bütövlükdə Cənubi Qafqazdan gedir. Sualınıza cavab olaraq isə demək istəyirəm ki, arı şirəni çiçəklərdən, güllərdən, çəmənlərdən çəkir. Onları bilməsən, tanımasan nəyi ayırd edə bilərsən? Bir də ki, Azərbaycan təbiəti o qədər zəngindir ki, onun heç bir gülünə-çiçəyinə biganə qalmaq olmaz.

Mən də otları, çiçəkləri yaxşı tanıyıram. Bəzi insanlar dağlardan, yamaclardan bitkiləri yığıb dərman vasitələri kimi istifadə edirlər. Bu, düzgün deyil. Min bir dərdin dərmanı olan güllərin, çiçəklərin hər birinin özünün dərilmə vaxtı və yeri var. Həm də hər bir bölgənin özünəməxsus bitki aləmi mövcuddur. Dağda, dağətəyi ərazidə, meşədə, çay qırağında, aran yerlərində bitən bitkilərin hər biri tərkibinə görə bir-birindən fərqlənir. Müalicəvi əhəmiyyətinə görə dağ ərazilərində bitən bitkilər daha effektlidir. Onların tərkibində bioloji aktiv maddələr çoxdur. Bitkilərin dərilmə vaxtından da çox şey asılıdır. Onların səhər saat 12-yə qədər və ya axşam toran qovuşanda dərilməsi məsləhətdir. Elə bitkilər var ki, sübh tezdən şehli-şehli dərməsən onları dərməyin heç bir mənası yoxdur. Çünki günəş altında bitkilərin tərkibindəki efir yağları, bioloji aktiv maddələr parçalanır və onların müalicəvi əhəmiyyəti itir. Xalq təbabəti əsasən Şərqdən gəlir. Azərbaycanda da qədim zamanlardan təbiblər, loğmanlar olmuşlar. Bu gün də var, sabah da olacaq. Mənim düşüncəmə görə, Qərb təbabəti insana bir mexanizm kimi baxır və onun ayrı-ayrı orqanlarını müalicə edir. Şərq təbabətində isə insana bütöv bir varlıq kimi baxılır, o həm cismən, həm də ruhən müalicə olunur. Həkimlik elə bir sənətdir ki, bu sənətin sahibinin ürəyi mərhəmətli, əlləri şəfqətli olsun gərək...

**- Müsahibəyə görə çox sağ olun.**

*Zülfü İLYASOV,*
*Bölgə müxbiri*

# "15 iyun Xaosun sonu - Milli Qurtuluşun başlanğıcı" mövzusunda dəyirmi masa keçirildi



13 iyun 2014-cü il tarixində Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində 15 iyun - Milli Qurtuluş gününə həsr olunmuş "15 iyun Xaosun sonu-Milli Qurtuluşun başlanğıcı" mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbir iştirakçıları ulu öndərin abidəsi önünə güllər düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildirmişlər.

Dəyirmi masanı giriş sözü ilə açan Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova qonaqları salamlamış, Azərbaycanın dövlətçilik ənənələrinin bərpa olunmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışmışdır.

Sonra Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, tarix elmləri doktoru Anar İsgəndərov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru Elman Nəsirov, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, iqtisad üzrə fəlsəfə doktoru Elşad Səmədzadə çıxış etmişlər.

Tədbirin sonunda rayonun ictimai-siyasi və mədəni kütləvi həyatında fəal iştirakına görə 7 nəfərə hədiyyələr, həmçinin Yeni Azərbaycan Partiyasının sıralarına yeni üzv olanlara YAP biletləri təqdim olunmuşdur.

# Azərbaycanlı alimlər Beynəlxalq konqresdə elmi məruzə ilə çıxış etmişlər



İyunun 12-dən 14-dək Qazaxıstanın Almatı şəhərində Əhməd Yesevi adına Beynəlxalq Qazax-Türk Universiteti və Türk Akademiyasının təşkilatçılığı ilə "Dünya enerji bazarları: Orta Asiya və Qafqaz ölkələri" mövzusunda I Beynəlxalq iqtisadiyyat, maliyyə və enerji konqresi keçirilmişdir. 14 ölkədən 56 məruzəçinin qatıldığı konqresin məqsədi inkişaf etməkdə olan dünya iqtisadiyyatında iqtisadiyyat, siyasət, maliyyə çərçivəsində enerji problemlərinin həllinə kömək etmək, bu sahədə aparılan tədqiqatların nəticələrinin mübadiləsi və gələcək layihələrin birgə həyata keçirilməsi olmuşdur.

Beynəlxalq tədbirdə ölkəmizi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisad elmləri doktoru professor Elşən Hacızadə, Azərbaycan Dövlət İqtisad Universitetindən rektorun müşaviri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Elşən Bağırzadə təmsil etmişlər.

Konqresdə professor Elşən Hacızadə "Makroregional inteqrasiyanın dərinləşməsində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin rolu və əhəmiyyəti", iqtisadiyyat üzrə fəlsəfə doktoru Elşən Bağırzadə "Azərbaycan-Qazaxıstan iqtisadi münasibətləri: mövcud vəziyyət və gözləntilər" mövzularında elmi məruzə ilə çıxış etmişlər. Konqresdə Elşən Bağırzadə həmçinin panellərdən birinin moderatorluğunu həyata keçirmişdir. Professor Elşən Hacızadə isə öz təhlili qənaətlərini konqersin nəticələri ilə bağlı yekun iclasda iştirakçılarla bölüşmüşdür.

Konqresdə Türk Dünyasının məşhur alimləri, Əhməd Yesevi adına Beynəlxalq Qazax-Türk Universitetinin Türkiyə tərəfindən rektoru prof. dr. Musa Yıldız və prorektor doç.dr. Nevzat Şimşək, Qazaxıstan Türk Akademiyasının prezidenti prof. dr. Darhan Kıdıralı, Türkiyə İqtisadiyyat Qurumunun sədri prof. dr. Ercan Uyğur, Qazaxıstanın Ağsaqqalı prof. dr. Adil Əhmədov, prof. dr. Kayırbek Arslanbekov (Türk Akademiyası), prof. dr. Yaksıbek Kulekeyev (Qazax Neft və Təbii Qaz İnstitutu), prof. dr. Rəcəb Kök (Dokuz Eylül Universiteti), prof. dr. Aytaç Eker (Tunceli Universiteti), prof. dr. Asuman Altay (Dokuz Eylül Universiteti), prof. dr. Müzeffar Ercan Yilmaz (Balıkesir Universiteti) və digərləri iştirak etmişlər.

Alimlərə konqresin sertifikatları və Əhməd Yesevi adına Beynəlxalq Qazax-Türk Universitetinin təşəkkürnamələri təqdim edilmişdir.



## *«Vergi dostları» bir araya gəlirlər*

İyunun 10-da Şəki rayonunda fəaliyyət göstərən «vergi dostları» ilə vergi əməkdaşlarının görüşü olmuşdur.

Şəki Olimpiya Kompleksində keçirilmiş tədbirdə layihə iştirakçılarının gördüyü işlər nəzərdən keçirilmişdir. Görüş zamanı gənc nəslin vergilər haqqında biliklərinin artırılmasında, şagird və tələbələr arasında vergi mədəniyyətinin formalaşdırılması istiqamətində görülən işlər, «vergi dostları»nın fəaliyyət göstərdikləri kəndlər üzrə bəyannamələrin təqdimedilmə vəziyyəti müzakirə edilmişdir. Vergi ödəyicilərinin maarifləndirilməsi, əhali arasında vergi mədəniyyətinin artırılmasının əhəmiyyəti vurğulanmış, belə görüşlərin mütəmadi keçirilməsinin vacibliyi qeyd edilmişdir. Tədbir iştirakçılarına sadələşdirilmiş vergi bəyannamələrinin onlayn təqdim olunması, onlayn kargüzarlığa daxil olan məktubların oxunması əyani şəkildə nümayiş etdirilmiş, bu sahədə qazanılan təcrübənin əhəmiyyətinə diqqət yönəldilmişdir.

## *Dövlət vergi orqanlarına işə qəbulun növbəti mərhələsi keçirilir*

Test imtahanlarında müvəffəqiyyət qazanan namizədlər üçün müsabiqənin növbəti - müsahibə mərhələsi başlamışdır. Müsahibə prosesi nazirliyin inzibati binasında keçirilir. Bu il dövlət vergi orqanlarında işə qəbul zamanı test imtahanında iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir.

İyun ayının 4-də keçirilən test imtahanlarını 76 nəfər uğurla başa vurmuş və onlar 2-ci mərhələyə - müsahibəyə buraxılmışlar. Bu mərhələdə doqquz nəfərdən ibarət müsabiqə komissiyası tərəfindən hər bir namizədlə fərdi qaydada müsahibə aparılır. Müsahibə zamanı namizədə onun Azərbaycan Respublikasının Konstitusiyasını, vergi qanunvericiliyini, iqtisadi siyasətlə bağlı digər normativ-hüquqi aktları tətbiq etmək sahəsində biliyinin və bacarığının, ümumi dünyagörüşünün, vergi orqanlarında xidmətə layiqli olmasının müəyyən edilməsi üçün suallar verilir. Bu mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, indiyədək keçirilmiş 9 belə müsabiqə nəticəsində vergi orqanlarına 1000 nəfərdən çox gənc kadr işə qəbul olunmuşdur.

## *Çağrı mərkəzlərinin zirvə toplantısı*

İstanbulda çağrı mərkəzlərinin ikinci zirvə toplantısı keçirilmişdir. Özəl və dövlət sektorunu əhatə edən, habelə xarici iştirakçıların da dəvət olunduğu toplantıda enerji, maliyyə kimi sahələrlə yanaşı, əsasən dövlət sektorunda çağrı mərkəzlərinin fəaliyyəti müzakirə olunmuşdur.

Zirvə toplantısında çağrı mərkəzlərinin faydaları, dizaynı və texniki təchizatı, tətbiq edilən yeniliklər, çağrı mərkəzlərində təlimin rolu kimi mövzularda təqdimatlar olmuşdur.

«UNİQ Eğitim & Danışmanlık» şirkətinin dəvəti ilə tədbirdə Azərbaycan Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin 1-ci müavini Elçin Məmmədov və rəis müavini Məhəmməd Yunusov iştirak etmişlər.

# Vergilər Nazirliyində Dünya Bankının nümayəndələri ilə görüş keçirilmişdir



İyun ayının 18-də Vergilər Nazirliyində Dünya Bankının Azərbaycan üzrə baş iqtisadçısı, xanım Mona Prasadın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir. Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov son illərdə ölkəmizin vergi sistemində aparılan islahatlar haqqında qonaqlara geniş məlumat verərək, bildir-mişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində vergi inzibatçılığının bütün sahələrində müasir İKT-nin tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması kimi ciddi uğurlar əldə edilmişdir. Bunu ilk növbədə, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan müasir innovativ vergi inzibatçılığının qurulması nəticəsində vergi ödəyiciləri tərəfindən rəğbətlə qarşılanan elektron xidmətlərin göstərilməsi sahəsində görmək mümkündür. N.Əmirov vergi sistemində və vergi inzibatçılığında aparılan islahatların davam etdiriləcəyini, vergidən yayınma hallarının qarşısının alınması üçün daha səmərəli nəzarət mexanizmlərin tətbiq olunacağını, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin keyfiyyətinin daha da artırılacağını diqqətə çatdırmışdır.

Qeyd edilmişdir ki, hazırda qarşıda duran prioritet vəzifələrdən biri də nağdsız ödənişlər üçün müvafiq infrastrukturun yaradılması, bu sahədə stimullaşdırıcı tədbirlərin keçirilməsi və əhalinin fəallığının artırılmasıdır. Nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə bu sahədə ən qabaqcıl beynəlxalq təcrübə araşdırılaraq təhlil edilir, yeni nəsil ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir. Vergi ödəyicilərinin və onların nümayəndələrinin nağdsız ödənişlərin əhəmiyyəti və əlverişliliyi haqda maarifləndirilməsinin təmin edilməsi məqsədilə müxtəlif tədbirlər keçirilir.

Bildirilmişdir ki, 2014-cü ildən Vergilər Nazirliyi bələdiyyələrin vergi informasiya sisteminin avtomatlaşdırılması məqsədilə proqram təminatı hazırlanmış 8 bələdiyyədə yerli (bələdiyyə vergi və ödənişlərini) ödəyicilərin elektron uçotunun tətbiqi üzrə pilot layihənin reallaşdırılmasına start vermişdir. Proqram təminatı "Cybernet" şirkəti tərəfindən hazırlanmış bu sistemin tətbiqi bələdiyyə gəlirlərinin ödənişi ilə bağlı olan bütün əməliyyatların avtomatlaşdırılmasına imkan verir və bələdiyyə vergi ödəyiciləri olan fiziki şəxslər üçün vergiləri bələdiyyələrə gəlmədən asanlıqla ödəmək üçün geniş imkanlar açır.

Xanım Mona Prasad Azərbaycanın vergi sistemində aparılan islahatların, xüsusilə də yeni informasiya kommunikasiya texnologiyalarının tətbiqi və elektron xidmətlər sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı ölkəmizdə görülən işlərin region ölkələri ilə müqayisədə daha sürətlə inkişaf etdiyini, mütərəqqi informasiya texnologiyalarına əsaslanan layihələrin genişləndirilməsini müsbət hal kimi qiymətləndirərək, Dünya Bankı və Azərbaycan hökuməti arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

Görüşdə vergi siyasəti və inzibatçılığı üzrə potensial əməkdaşlıq sahələri, həmçinin iqtisadiyyatda nağdsız əməliyyatların stimullaşdırılması və bələdiyyələrdə elektron qeydiyyat sisteminin həyata keçirilməsi sahəsində Dünya Bankı tərəfindən təklif olunan texniki yardım və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

# «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi çapdan çıxmışdır




Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan jurnalın bu nömrəsinin ənənəvi «Rəsmi» rubrikasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının milli bayramı - Novruz bayramı münasibətilə ümumxalq şənliyində, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə, Nazirlər Kabinetinin 2014-cü ilin I rübünün yekunlarına həsr edilmiş iclasında nitqlərinin xülasəsi verilmişdir. Rubrikada həmçinin vergilər naziri F.Məmmədovun Nazirlər Kabinetinin iclasındakı çıxışı da dərc olunmuşdur.

«Vergilər Nazirliyində» rubrikasında BVF-nin, Dünya Bankının, Slovakiya Respublikasının Maliyyə Nazirliyinin nümayəndələri ilə, həmçinin vergi orqanlarına işə qəbul edilmiş gənc kadrlarla nazirlikdə keçirilmiş görüşlər barədə məlumatlar verilmişdir.

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirovun «Nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə yeni nəsil ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir» başlıqlı müsahibəsi də bu nömrədə öz yerini tutmuşdur.

«Aktual» rubrikasında Azərbaycan Respublikası Auditorlar Palatasının sədri prof. V.Novruzovun «Korrupsiyaya qarşı mübarizə yeni mərhələdə» başlıqlı analitik məqaləsi təqdim olunmuşdur.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin bu il 10 yanvar tarixli sərəncamı ilə 2014-cü ilin «Sənaye ili» elan edilməsi ölkəmizdə iqtisadi inkişafın yeni bir mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Bununla əlaqədar jurnalda «Sənayeləşdirmə ili» adlı yeni rubrika açılmışdır. Rubrikanın ilk qonağı Abşeron rayonu Xırdalan şəhərində yerləşən maşınqayırma təyinatlı «Asena Ko» MMC-nin rəhbəri Vahid Hümbətovdur. Onunla söhbətdə sahibkarlıq subyektlərinin sənayeləşmə prosesində yeri və rolundan ətraflı danışılmışdır.

«Qanunvericilik» rubrikasında oxucular «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı, «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» 2004-cü il 5 noyabr tarixli Sazişə əlavə və dəyişikliklər edilməsi barədə protokolun təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu, «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tanış ola biləcəklər.

Baş redaktor prof. E.Hacızadənin jurnal fəaliyyətə başladığı gündən redaksiya heyətinin üzvü olmuş görkəmli iqtisadçı alim, akademik Asəf Nadirovun unudulmaz xatirəsinə həsr etdiyi məqalədə mərhum alimin həyat yolu, elmi və ictimai fəaliyyəti haqqında söz açılmışdır.

Elmi məqalələr blokunda bu dəfə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu aşağıdakı məqalələr yerləşdirilmişdir: Türkiyənin Hacəttəpə Universitetindən prof. dr. Ahmet Burçin Yerel və Onur Uçarın «Türkiyə vergi sistemində vərəsəlik və bağışlama vergisinin tətbiqi mexanizmi», i.e.d. Y.Kəlbiyev və dissertant T.Nağıyevin «İkiqat vergitutma və onun aradan qaldırılmasının əsas aspektləri», i.f.d. P.Rzayevin və i.f.d. Z.Rzayevin «Vergi ödəyicilərinə xidmət sferasında işgüzar ünsiyyət və nitq mədəniyyətinin xüsusiyyətləri», t.e.f.d. S.İsmayılovun, k.e.f.d. F.Hüseynovun və i.e.d., prof. E.Hacızadənin «Azərbaycanda qara metallurgiya sənayesi: inkişaf mərhələləri və perspektivlər», i.e.f.d., dos. F.Hacıyevin «Müasir şəraitdə sənaye sahələrinin investisiya axınının səmərəliliyinin təhlili və qiymətləndirilməsi», i.e.f.d., dos. Ş.Əliyevin «Xüsusi iqtisadi zonalarda vergilərin mühüm aspektləri», i.e.f.d. L.Akgünün «Artan rəqabət mühitində daxili auditin önəmi və yoxlamada müstəqilliyin rolu», dissertant R.Əliyevanın «Vergi ödəyicilərinin uçotu sahəsində vergi nəzarətinin mövcud vəziyyəti».

«Dünya iqtisadiyyatı» rubrikasında Yaponiyanın iqtisadiyyatı, vergi sistemi haqqında oxuculara geniş məlumat verilmişdir. «Elm korifeyləri» rubrikasında oxucular bu dəfə 2003-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş ABŞ iqtisadçısı Robert Fray İnqlin və ingilis iqtisadçısı Klayv Vilyam Con Qrengerin həyat və elmi yaradıcılıqlarına nəzər salınmışdır.

Bu nömrədə «İqtisadi terminlər lüğəti»nin dərci də davam etdirilmiş, sonda jurnalda elmi məqalələrin dərc etdirmək istəyənlər üçün «Müəllif qaydaları» verilmişdir.

# "AtaBank" bədii gimnastika üzrə 30-cu Avropa çempionatında bank xidmətləri göstərdi




ASC-nin İdarə Heyətinin üzvü – İcraçı direktor Elnur Osmanov bildirib ki, "AtaHolding" ASC-nin baş sponsoru olduğu Gimnastika üzrə 30-cu Avropa çempionatında iştirakçılara bank xidməti göstərməkdən yalnız fəxr duyuruq.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC Azərbaycanın ən böyük kommersiya strukturlarından biridir. Bu gün "AtaBank" yüksək texnologiyalı universal bank hesab edilir. Bakıda və ölkənin müxtəlif regionlarında bankın 25 filial və şöbəsi fəaliyyət göstərir. Bank korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

2014-cü il iyunun 13-15-də Bakıda Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə 30-cu Avropa çempionatında "AtaBank" ASC səyyar bankomatı olan "AtaMatik" ilə bank xidməti göstərdi. 3 gün boyunca davam edən çempionatda "AtaMatik" Milli Gimnastika Arenasının qarşısında dayanan iştirakçılara, azarkeş və nümayəndələrə müxtəlif növ bankçılıq əməliyyatlarından istifadə imkanı yaratmışdır. "AtaMatik" səyyar bankomatı vasitəsilə hər kəs bank kartı vasitəsilə nağd pul çıxara, habelə nağdsız ödənişlər və əməliyyatlar apara bildi.

Öz müştərilərinə daim innovativ texnoloji imkanlar təqdim edən "AtaBank"

# "Excelsior Hotel Baku" otelində "Yay mövsümünün açılışı mərasimi" keçirildi

*13 iyun 2014-cü il tarixində "Excelsior Hotel Baku" otelinin açıq hovuzda yerləşən Pool Bar restoranında "Yay mövsümünün açılış" tədbiri keçirilmişdir.*

Tədbirin proqramına canlı musiqi proqramı, hədiyyə lotoreyası, gecəyə qədər DJ musiqisi və rəqs daxil edilmiş-





dir.Tədbirdə paytaxtın qonaqları və sakinləri, işgüzar dairələrin nümayəndələri iştirak etdilər. Açılış mərasimində çıxış edən "Excelsior Hotel Baku" otelinin baş meneceri Turhan Poyraz qonaqlara yay hovuzunun yanında şəraitə və göstərilən xidmətlərə dair geniş informasiya verib. O, qeyd edib ki, bundan sonra paytaxtımızın qonaqları və sakinləri şəhərdən kənara çıxmadan qızmar yay günlərində gözəl şəraitdə dincələ, günəş şüaları qəbul edə, suyun yanında axşam mehindən həzz ala biləcəklər.

Sərinləşdirici içkilər, ləzzətli təamlar və canlı musiqi hovuz ətrafında gözəl ab-hava yaratdı. Estrada müğənniləri Səbinə Babayeva və Diananın ifalarında populyar milli və xarici şlyagerlərhamının ürəyincə olub. Tədbirdə keçirilən lotoreyada qonaqlar "AtaBank" ASC, "AtaSığorta" ASC və digər şirkətlərdən hədiyyələr uddular.



Qeyd edək ki, "Excelsior Hotel & Spa Baku" 2005-ci ilin avqustundan fəaliyyət göstərir. Otel 1 "İmperial "- lyuks, "Royal"- lyuks, 4 "Crown"- lyuks , 45 "Heritage" – delüks, 9 "Duke" – standard otaqlar, konfrans zalı, biznes mərkəzi, restoranlar, "Aura" sağlamlıq mərkəzi və s.-dən ibarətdir.

# "AzRe Təkrarsığorta" ASC-nin 31 dekabr 2014-cü il üçün maliyyə hesabatı

(Azərbaycan Manatı ilə)

| | 31 dekabr 2013 | 31 dekabr 2012 |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12,246,607.94 | 5,548,376.47 |
| Banklarda olan depozitlər | 53,940,411.26 | 46,278,868.20 |
| Dövlət qiymətli kağızları | 301,430.14 | 199,853.18 |
| Qeyri-dövlət qiymətli kağızları | 3,528,349.65 | 3,125,183.28 |
| Mükafatlar və sığorta üzrə digər debitor borcları | 8,416,989.72 | 6,453,544.04 |
| Əmlak və avadanlıq | 800,699.64 | 838,372.14 |
| Qeyri-maddi aktivlər | 254,029.53 | 225,863.56 |
| Digər aktivlər | 2,944,161.86 | 2,025,522.32 |
| **Cəmi aktivlər** | 82,432,679.74 | 64,695,583.19 |
| **Öhdəliklər və kapital** | | |
| Sığorta müqavilələri üzrə öhdəliklər | 30,687,232.57 | 16,339,939.61 |
| Sığorta fəaliyyəti üzrə kreditor borcları | 773,009.58 | 296,781.73 |
| Digər kreditor borcları və ehtiyatlar | 415,072.22 | 306,990.05 |
| **Cəmi öhdəliklər** | 31,875,314.37 | 16,943,711.39 |
| Nizamnamə kapitalı | 40,000,000.00 | 40,000,000.00 |
| Bölüşdürülməmiş mənfəət | 8,349,390.16 | 5,772,327.76 |
| Kapital ehtiyatları | 1,333,000.00 | 1,333,000.00 |
| **Əsas müəssisənin səhmdarlarına məxsus kapital** | 49,682,390.16 | 47,105,327.76 |
| Azlıqların payı | 874,975.21 | 646,544.04 |
| **Cəmi kapital** | 50,557,365.37 | 47,751,871.80 |
| **Cəmi öhdəliklər və kapital** | 82,432,679.74 | 64,695,583.19 |

**"AZRE TƏKRARSIĞORTA" ASC**

**KONSOLİDƏ EDİLMİŞ MƏCMU GƏLİR HESABATI**
**31 DEKABR 2013-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2013 tarixində bitən il üzrə | 31 dekabr 2012 tarixində bitən il üzrə |
|---|---|---|
| Ümumi sığorta və təkrarsığorta mükafatları | 47,913,804.41 | 36,021,608.43 |
| Sığorta mükafatlarında təkrarsığortaçıların payı | (8,654,761.51) | (7,503,926.83) |
| **Xalis mükafatlar** | **39,259,042.90** | **28,517,681.60** |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi) | (13,482,298.21) | (7,041,390.06) |
| **Qazanılmış xalis mükafatlar** | **25,776,744.69** | **21,476,291.54** |
| Ümumi ödənilmiş iddialar | (10,501,959.29) | (10,664,677.66) |
| Ödənilmiş iddialarda təkrarsığortaçının payı | 0.00 | 26,303.63 |
| **Xalis iddialar** | **15,274,785.40** | **10,837,917.51** |
| Faiz gəliri | 4,445,946.18 | 3,534,190.17 |
| Satış komissiyaları | (5,464,502.12) | (4,203,120.94) |
| Təkrarsığorta şirkətlərindən əldə olunan komissiya gəliri | 1,203.27 | 35,585.50 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis zərər | (57,690.57) | (22,020.13) |
| Əməliyyat xərcləri | (4,241,642.35) | (2,827,353.95) |
| Digər gəlirlər | 166,126.96 | 73,501.79 |
| Digər sığorta xərcləri | (240,103.07) | (232,216.97) |
| **Vergidən əvvəlki mənfəət** | **9,884,123.70** | **7,196,482.98** |
| Mənfəət vergisi xərci | (2,075,347.23) | (1,419,778.57) |
| **İl üzrə xalis mənfəət** | **7,808,776.47** | **5,776,704.41** |
| **O cümlədən:** | | |
| Əsas müəssisənin səhmdarlarına aid | 7,579,970.10 | 5,704,564.11 |
| Azlıqlara aid | 228,806.37 | 72,140.30 |

**"AZRE TƏKRARSIĞORTA" ASC**

**Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat**
**31 dekabr 2013-ci il tarixində bitən il üzrə**

(Azərbaycan Manatı ilə)

| | Əsas müəssisənin səhmdarlarına aid | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nizamnamə kapitalı | Bolüşdürülməm iş mənfəət | Digər kapital ehtiyatları | Cəmi | Azlıqların payı | Cəmi |
| **31 dekabr 2011** | 40,000,000.00 | 67,763.65 | 1,333,000.00 | 41,400,763.65 | 574,403.74 | 41,975,167.39 |
| **İl üzrə məcmu gəlir:** | | | | | | |
| İl üzrə xalis mənfəət/(zərər) | | 5,704,564.11 | | 5,704,564.11 | 72,140.30 | 5,776,704.41 |
| **31 dekabr 2012** | 40,000,000.00 | 5,772,327.76 | 1,333,000.00 | 47,105,327.76 | 646,544.04 | 47,751,871.80 |
| İl üzrə məcmu gəlir: | | | | | | |
| İl üzrə xalis mənfəət/(zərər) | | 7,579,970.10 | | 7,579,970.10 | 228,806.37 | 7,808,776.47 |
| Dividenlər | | (5,000,000.00) | | (5,000,000.00) | | (5,000,000.00) |
| Uçot siyasətində dəyişikliklər və ya əməliyyatli səhvlərlə bağlı düzəlişlər | | (2,907.70) | | (2,907.70) | (375.20) | (3,282.90) |
| **31 dekabr 2013** | 40,000,000.00 | 8,349,390.16 | 1,333,000.00 | 49,682,390.16 | 874,975.21 | 50,557,365.37 |

# CACS AUDİT MMC

Müstəqil Auditorun Hesabatı

«AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Bakıxanov küçəsi 6, "Bridge Plaza".

**Maliyyə hesabatları üzrə hesabat**

Biz «AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Qrup") 31 dekabr 2013-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti, məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

*Rəy*

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2013-cü il tarixinə Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə məcmu gəlirlər və pul vəsaitlərinin hərəkəti üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

*Əhəmiyyətli məsələlər*

Açılış rəqəmləri bizim tərəfimizdən audit olunmamışdır. Həmin rəqəmlər audit olunmadığından onların düzgünlüyünə görə biz məsuliyyət daşımırıq.

«CACS Audit» MMC-nin
direktoru Valid Hüseynov

auditoru Azad Sadıxov

18 iyun 2014-cü il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti • CACS AUDİT • Limited Liability Company • Azerbaijan Republic

# Sığorta bazarının 67%-i könüllü formalaşıb




Bu ilin yanvar-may aylarında sığorta haqlarının 67%-i və ya 125,8 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Ötən ilin eyni dövrü ilə müqayisədə 15,5% və ya 16,9 milyon manat çoxdur.

İcbarı sığorta növləri üzrə yığımlar 61 milyon manat və ya bazarın 33%-ni təşkil edir. Ötən ilin eyni dövrü ilə müqayisədə icbari sığorta bazarı 2,3% və ya 1,35 milyon manat artıb.

2014-cü ilin ilk 5 ayında ümumi ödənişlərin 71%-i və ya 39,2 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Könüllü sığortalar üzrə ödənişlər ötən ilin eyni dövrünə nisbətən 13% və ya 4,5 milyon manat artıb. İcbarı sığorta növləri üzrə ödənişlər isə 12,9% və ya 1,8 milyon manat artaraq 16 milyon manata çatıb.

Hesabat dövründə könüllü sığortadan toplanmış hər 100 manat sığorta haqqı müqabilində 31,2 manat ödəniş həyata keçirilib. Ötən ilin yanvar-may aylarında bu göstərici 32 manata yaxın olub. İcbarı sığorta üzrə toplanan hər 100 manat üzrə ödəniş isə ötən ilki 24 manatdan 26 manata qalxıb.

# Həyat sığortası bazarı 52% artıb




Bu ilin yanvar-may aylarında Azərbaycanda toplanan sığorta haqlarının 27%-i və ya 50 milyon manatı həyat sığortası üzrə yığımların payına düşüb.

Ötən ilin eyni dövrü ilə müqayisədə həyat sığtrtası bazarı 17 milyon manat və ya təxminən 52% böyüyüb.

Həyat sığortası üzrə yığımların 51,7% və ya 25,8 milyon manatı həyatın yaşam sığortasının, 35%-i və ya 17,5 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 13,3%-i və ya 6,6 milyon manatı həyatın ölüm halından sığortasının, cəmi 34 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb.

2014-cü ilin ilk 5 ayında həyat sığortası üzrə həyata keçirilmiş sığorta ödənişlərinin məbləği isə 2,9 milyon manat təşkil edib. Bu da ümumi ödənişlərin 5,3%-ni təşkil etməklə 2013-cü ilin eyni dövrünə nisbətən 1,2 milyon manat və ya təxminən 73% çoxdur.

Həyat sığortası üzrə ödənişlərin 56,4%-i və ya 1,65 milyon manatı həyatın yaşam sığortasının, 30,9%-i və ya 0,9 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 12,7%-i və ya 370 min manatı isə həyatın ölüm halından sığortasının payına düşüb. Sağalmaz xəstəliklərlə bağlı isə sığorta ödənişi alan olmayıb.

Hesabat dövründə həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqı müqabilində 5,84 manat yaxın ödəniş həyata keçirilib. Ötən ilin yanvar-may aylarında bu göstərici 5,14 manat olub.

# Qeyri-həyat sığortası bazarı cəmi 1% artıb



Bu ilin yanvar-may aylarında Azərbaycanda sığorta haqlarının 137 milyon manatı və ya 73%-i qeyri-həyat sığortasının payına düşüb. Ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-həyat sığorta bazarı cəmi 1,15 milyon manat və ya təxminən 1% artıb.

Qeyri-həyat sığortası üzrə yığımların 31%-i və yaxud 42,5 milyon manatı tibbi sığortanın, 18,4%-i və ya 25,2 milyon avtomobillərin icbari sığortasının, 10,5%-i və ya 14,4 milyon manatı kasko sığortanın, 9,3%-i və ya 12,8 milyon manatı əmlakın yanğından və digər risklərdən sığortasının, 4,5%-i və ya 6,2 milyon manatı daşınmaz əmlakın icbari sığortasının, qalanı isə digər qeyri-həyatı sığortası növlərinin payına düşüb.

2014-cü ilin ilk 5 ayında sığorta bazarındakı ödənişlərin 94,7%-i və ya 52,3 milyon min manatı qeyri-həyat sığortasının payına düşüb. Bu, 2013-cü ilin eyni dövrünə nisbətən 5,1 milyon manat və ya təxminən 13% çoxdur.

Qeyri-həyat sığortası üzrə ödənişlərin 36,3%-i və ya 19 milyon manatı tibbi sığortanın, 21,4%-i və ya 11,2 milyon manatı kasko sığortanın, 20,7%-i və ya 11 milyon manatı avtomobillərin icbari sığortasının, 10,9%-i və yaxud 5,7 milyon manatı əmlakın yanğından və digər risklərdən sığortasının, 1,7%-i və ya 868 min manatı isə daşınmaz əmlakın icbari sığortasının, qalanı isə digər qeyri-həyati sığortası növlərinin payına düşüb.

Hesabat dövründə qeyri-həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqı müqabilində 38,2 manat ödəniş həyata keçirilib. Bu göstərici ötən ilin yanvar-may aylarında 34,8 manat olub.

# Эва-Мария Аух: Главное достояние Азербайджана это люди!



***Гостья нашей газеты Эва-Мария Аух (заведующая кафедрой «История Азербайджана» Берлинского университета имени Гумбольдта, являющегося одним из передовых университетов Германии) видный специалист, который сегодня отдает свои силы, время и сердце для пропаганды исторического наследия Азербайджана в Германии.***



**- Уважаемая Ева ханум расскажите об идеи возникновения кафедры истории Азербайджана в столь значимом университете Европы.**

- Это был довольно сложный процесс. Дело в том, что в Германии несколько другая система образования. Т.е. есть традиционные предметы и один из таковых история Восточной Европы, в том числе Кавказа. История конкретных стран в частности Азербайджана, рассматривается сквозь призму глобальных процессов. Тем более, что с началом Первой мировой войны Кавказ и процессы вокруг него отошли на второй план, т.к. изучали историю СССР в целом. Подобный процесс был и после второй мировой войны, когда на страны Восточной Европы влиял фактор социалистического блока. Все это время не существовало ни одного центра изучения истории Кавказа, и Азербайджана соответственно тоже. Вообще до 2010 года во всей Европе не было ни одной организации занимающейся изучением истории Азербайджана.

Если окунуться в историю, то вам наверняка известно, что взаимоотношения между двумя странами берут начало во второй половине XIX века. В 1863 году немецкой компанией братьев Сименс были построены на базе находившихся на территории Гедабека медных месторождений крупные медеплавильные заводы. До начала XX века медь, выплавленная на этих заводах, составляла 2/3 от общего объема меди, производившейся на Южном Кавказе. Помимо этого, компанией братьев Сименс был построен кобальтовый завод на базе кобальтовых месторождений в Дашкесане. В результате строительства этих заводов было трудоустроено множество людей, улучшилось материальное положение населения. Вследствие повышения активности на этой территории немецких промышленников, в округе, и в частности в нынешних Гей-Гельском и Шамкирском районах, появились немецкие колонии.

С того времени и до сих пор в Азербайджане существует фактор нефти, и как следствие участие страны в глобальных энергетических проектах. Именно в этом контексте мы известны в Европе. Конечно есть и другие стороны – это Берти Фокс (главный тренер Азербайджана по футболу), и замечательная победа на музыкальном конкурсе Евровидение. Дело в том, что журналисты в Европе избалованы наплывом информации, и потому любую информацию нужно преподносить в нужном ключе. Надеюсь что в будущем Азербайджан будет еще более активен в информационном пространстве Европы.

По моей инициативе, еще в 1994 году была создана рабочая группа по изучению Кавказа. Это была первая инициатива, и к сожалению мы тогда не получили поддержку. Конечно, я чувствовала, что существуют объективные и субъективные сложности в этом процессе. Мы в то время часто менялись мнениями с нынешним послом, а тогда еще сотрудником посольства Азербайджана в Германии Парвизом Шахбазовым. Должна заметить, что это исключительно трудолюбивый дипломат, который проделывает огромную работу в своей области. Он еще в то время, признав значимость создания центра по изучению истории Азербайджан в Германии, активно включился в этот процесс. Соглашение об открытии кафедры было подписано в 2009 году между бывшим ректором Берлинского университета имени Гумбольдта Христофом Маркшиесом и послом Азербайджана в Германии Парвизом Шахбазовым.

В Берлине сегодня функционируют достаточно азербайджанских обществ: это Немецко-азербайджанское культурное общество (нем. Deutsch-Aserbaidschanischer Kulturverein) (председатель Ибрагим Ахрари), Институт Культуры им. Низами Гянджеви (нем. Kulturinstitut Nizami Gandschavi) (председатель доктор Нурида Атеши), Общество дружбы Азербайджана и Германии (нем. Verein der deutsch-aserbaidschanischen Freundschaft) (председатель Мансур Рашиди) и другие проекты которым посольство уделяет большое внимание. Уверена что подобные сообщества сближают народы и помогают узнать лучше страну и ее традиции.




**- Расскажите о специфики возглавляемой Вами кафедры "История Азербайджана", какие проекты реализуете.**

- Наша кафедра занимается научно исследовательской работой, и в первую очередь это преподавательская деятельность, которая способствует популяризации истории Азербайджана. Также, это проведение научных мероприятий, сотрудничество с соответствующими научными структурами Азербайджана по исследованию истории нашей страны и другим вопросам, научное руководство в научно-исследовательских работах, а также в защите дипломов и диссертаций, связанных с историей Азербайджана, встречный обмен студентами, научными сотрудниками и преподавателями, а также проведение совместно с научно-исследовательскими структурами Азербайджана научных исследований и публикация научных работ.

Существует достаточно сильная инфраструктура кафедры. Мы регулярно проводим просветительские работы, лекции, слушания, конференции посещение которых добровольно для слушателей. Такие мероприятия популярны в Германии, т.к. существует большая заинтересованность не только среди студентов, но и среди простых людей. Они внимательно слушают, задают вопросы – и это отрадное явление означает то, что кафедра востребована в Германии.






С 29 ноября по 2 декабря этого года мы планируем провести в этом университете Неделю азербайджанской науки и культуры. Это будет значимое событие в истории университета, будут приглашены видные ученые с Азербайджана, которые поделятся своими разработками и проведут лекции. Для участия в этом проекте планируется пригласить ученых - исследователей, представителей министерств и ведомств, профильных фондов, научно-исследовательских институтов и общественных организаций.

Очень важна просветительная деятельность в Европе, т.к. из-за длительной информационной блокады Азербайджана мировая, в том числе германская общественность не получала объективной информации о происходящем.

Наша кафедра активно сотрудничает с многими организациями Азербайджана. Могу упомянуть добрыми словами Славянский университет, Исторический факультет БГУ, Университет Кавказ, Западный университет, Центр Стратегических Исследований при Президенте Азербайджана, Национальная Библиотека им. М.Ф.Ахундова, Институт литературы Академии наук Азербайджана и т.д.

Особо хочу отметить заботу руководства Азербайджана о нашей кафедре. В 2011 году Первая леди Азербайджана Мехрибан Алиева в рамках визита в Германию лично встретилась со мной и мне было очень приятно видеть заинтересованность и непосредственную поддержку с ее стороны нашей работе. Она высоко оценила нашу деятельность, поинтересовалась проблемами, выразила уверенность в будущее кафедры и пожелала мне успехов.

**- Ева ханум, в рамках визита Вы принимаете участие в работе международной научной конференции, посвященной 100-летию начала Первой мировой войны «Малоизвестные страницы истории, уроки прошлого и призыв к будущему». Чем Вы поделились с участниками конференции.**

- Это была очень продуктивная конференция, я привезла из Германии значимые архивные документы которые продемонстрировала в своем выступлении на конференции. Организатором конференции выступил Государственный архив политических документов Управления делами Президента Азербайджана, который возглавляет настоящий профессионал своего дела, ученый-историк Маис Багиров. Была проведена огромная работа – в работе конференции участвовало около 30 исследователей из разных стран – Азербайджана, Германии, Франции, России, Турции. Мы обсудили различные проблемы истории Первой мировой войны, в том числе вопросы источниковедения и историографии, отражения глобального конфликта в сознании современников и потомков в культурной памяти азербайджанцев и жителей других стран, участие мусульманских народов, в том числе азербайджанцев и других народов Кавказа, в этой войне, последствия её для всего мира и Кавказского региона.

На конференции учеными было акцентировано внимание на необходимости объективной оценки и недопущения вовлечения наших народов в новые глобальные конфликты, предотвращения новых трагедий. Было подчеркнуто, что в эпоху ядерного оружия и милитаризации важно не забывать уроков прошлых войн, которые могут напомнить ответственным за ее развязывание, что все войны заканчивались гибелью самих ее зачинщиков.

В работе конференции принял участие, и выступил с позитивной оценкой мероприятия академик Академии наук Азербайджана, председатель экономического комитета Милли Меджлиса Азербайджана Зияд Самедзаде.

К открытию конференции подготовлена богатая документальная выставка, посвященная 100-летию начала Первой мировой войны. Материалы конференции были изданы отдельной книгой, и каждый кому интересна эта тематика может ознакомится с докладами участников.

Уверена что подобные мероприятия важны для становления молодых исследователей, так и для обмена научным опытом ученых историков. Она также будет способствовать установлению научных связей, формированию общей концепции.

**- Вы часто приезжаете в Азербайджан, как Вы оцениваете процесс преображения страны?**

- В первую очередь это невероятный строительный бум в Баку в течении последних лет - новые отели, офисные здания, небоскребы, музеи современного искусства. Все это поражает воображение! Например, "Центр Гейдара Алиева" это невероятный проект! Или Flame Towers - новый символ столицы. Даже в Европе мало какой город может сравниваться в соотношении количества строящихся объектов, а ведь абсолютно несоизмеримые по масштабам город!

Также хочу упомянуть о старых постройках, в которых сохранился дух старого Баку. Я многое знаю о старинных зданиях, об улицах, каждая из которых таит в себе загадку. Очень важно сохранить их в первозданном виде – это лицо, визитная карточка города.

Но самое главное достояние Азербайджана это люди! Город изменился а они остались такими же, каких я знаю на протяжении долгих лет, и это отрадный факт. Здесь живут много близких мне людей, хороших подруг. Также хочу отметить молодое поколение историков Азербайджана - мне они нравятся - они амбициозны, они получают возможность для прогрессирования и поддержку руководства страны. Это очень радует меня и это дает большую надежду на будущий научный потенциал страны, ведь работа с молодежью имеет ключевое значение для обеспечения устойчивого будущего страны.

İQTİSADİYYAT
13 - 19 iyun 2014-cü il

# Ekoloji mühəndislik

Ekoloji mühəndislik elmi müasir texnikanın və texnologiyanın əksər sahələrində özünəməxsus inkişaf dinamikasına əsaslanaraq real həllini gözləyən vasitələrə ehtiyac kəsb etməkdədir. Texnika ilə ətraf mühit arasında neqativ təsir göstərməyən qarşılıqlı müvazinət yaratmaq, təbii ehtiyatlardan səmərəli istifadəni, onun effektivliyini yüksəltmək, lokal, regional və qlobal səviyyələrdə mühitin ekoloji keyfiyyətini saxlamaq üçün fasiləsiz texnoloji, idarəetmə və digər qərarların vaxtında yerinə yetirilməsi ekoloji mühəndisliyin əsas iş rejimlərindən hesab olunur. Bununla yanaşı, ətraf mühit arasında münasibətləri harmonizasiya etmək, texnosferi formalaşdırmaq, texnikanın qlobal əhəmiyyətli tətbiq olunan yeniliklərini sosial-ekoloji mövqedən qiymətləndirmək, onların biosfer qanunlarına uzlaşdığını real əsaslarla isbat etməkdir. Ekoloji iqtisadi qiymətləndirmə reallığını ekoloji mühəndis ekspertizası yerinə yetirilməlidir, məqsədi təbii ehtiyatlardan səmərəli istifadə, faydalı qazıntı yataqlarının geoloji-kəşfiyyat işlərini aparmaq, ehtiyatların hesablanması, onun sənaye əhəmiyyətli olmasını müəyyən etmək, fəaliyyətdə olanının genişləndirilməsi və yenidən qurulmasının, yeni texnika-texnologiya sisteminin mühitə təsirini müəyyən etməkdir.

Ekoloji mühəndisliyin göstəriciləri olduqca mürəkkəb qanunauyğunluqlarla birgə elmi topluların qlobal xarakteri münasibətlərdə araşdırılarsa, onda ekoloji tarazlığa nail olmaq bəşəriyyət üçün mümkündür. Üzvi - qeyri-üzvi aləmin ümumi varlığı olan biosfer mürəkkəb quruluşa, öz-özünə inkişaf edən maddi-mənəvi sistemdir. Bu ekoloji tarazlığa energetik amillər qarşılıqlı təsir edir. Bunlar Günəş radiasiyası, qravitasiya qüvvələri, tektonik qüvvələr, kimyəvi enerji, yəni oksidləşmə-reduksiya prosesləri, biogen enerji-fotosintez, xemosintez, heyvanların qidanı mənimsəməsi, bioloji oksidləşmə enerjisi, biokütlənin çoxalması, onun məhsuldarlığı biosferin əsas limiti, funksional varlığıdır. Müasir dövrdə bu amillərə antropogen təsir qruplaşmaları da saysız-hesabsız əngəlliklər törədərək biosferin strukturunu dəyişməkdədir. Ekoloji mühəndislikdə özünəməxsus



xarakterə malik olan istehsalat fəaliyyətinin inkişafı təbiət qanunlarının və proseslərinin inkişafı ilə ziddiyyət təşkil etməməlidir. Təbii sərvətlərdən biosferdə təbii müvazinəti pozmamaq şərtilə istifadə etmək üçün onların ərazi dinamikası qanunlarına, təbii ehtiyatların, biosferdə qarşılıqlı əlaqələrin spesifik uyğunluqlarına, xüsusiyyətlərinə riayət etmək lazımdır.

Ekoloji mühəndislik daimi törəməkdə olan ekologiyanın bütün real aspektlərinə görə əsas bölmələrindən biridir. Həmişə ekoloji tarazlığın tətbiqinə tələbat durmadan artır. Məsələn, müasir ekologiyanın bölmələri - Akvatik ekologiya – su orqanizmlərinin ekologiyası; Analitik ekologiya – populyasiyanın təbii mühitlə əlaqəsi; Aqroekologiya – qloballaşma ekologiyası; Dinamik ekologiya – orqanizmlər, onların qruplarının dinamik-təkamül mühiti; Təkamül ekologiyası – biologiyanın ekologi aspektlərini tətbiq edir; Ekzobiologiya – ətraf mühitin eksperimental şəraitdə quruda yaşayan orqanizmlərinin sağalma mexanizmlərinin hüdudlarını müəyyən etmək, bioloji birləşmələrin abiogen sintezi yollarını, avtomatik bioloji laboratoriyaların köməyilə başqa planetlərdə həyat meyarını təsdiq etməkdən ibarətdir; Tətbiqi ekologiya – biosferin insan tərəfindən dağılması, təbii resurslardan səmərəli istifadə edilməsi, ətraf mühitin tənzimlənməsinin, torpağın rekultavisasiyasının və təbiət qanunlarının, qaydalarının, prinsiplərinin real əsaslarla tətbiqi. Ekologiyanın bölmələri bütün sahələrdə olduqca mürəkkəb törəmələrlə əlaqələndirilərək çoxalmaqdadır.

Ekoloji məhəndislik isə qeyd edilən bütün bölmələrdə tam aparıcı kimi bütün səlahiyyətlərilə istifadə olunur. Ona görə ki, texnika ilə təbii və sosial ətraf mühit arasında maddə, enerji və informasiya üzrə ziddiyyətli təsir səciyyəvidir. Bu, texnika ilə ətraf mühitin əlaqəsini təsvir edir, onların ayrı-ayrı komponentlərinə eyni müstəvidə baxır. Bu cür münasibət texniki-texnoloji-geoloji sistemləri ekoloji və sosial baxımdan real qiymətləndirməyə imkan verir. Yeni texnika və texnologiyaya nail olmaq ekoloji mühəndisliyin daha yaxşı olması demək deyildir, ona kompleks qiymət verməlidir, iqtisadi sosial-ekoloji göstəricələr müəyyən edilməlidir. Yalnız yazılan şərtlər ödənildikdə ekoloji mühəndisliyə, onun istifadəsinə düzgün istiqamət verilir, üzərində daimi nəzarət həyata keçirilir. Xəzər dənizində neft-qaz yataqlarının kəşf edilməsi, estakadanın qurulması, layların istismar şərtlərinin ödənilməsi, lay təzyiqinin sabiq saxlanılmaması, injeksiya – nəzarət quyularının olmaması yataqların vaxtından əvvəl sulanmasına gətirib çıxararaq minlərlə ton neftin laylarda yatıb qalması ilə nəticələnmişdir.



**Qabil HƏSƏNOV,**
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

İstismar olunan laylar geoloji, geofiziki qaydaların ekoloji mühəndislik göstəricilərinə əsaslanaraq istismar edilsəydi, yeraltı sərvətlərdən faydalı istifadə edərək layların vaxtından əvvəl sulanmasının qarşısı alınardı.

Astronomik tədqiqatlar göstərir ki, Günəş sisteminin diametri 12 mlrd. km-dir. Sistem 150 milyarddan çox ulduzu özündə birləşdirməklə tərpənməz oxu ətrafında fırlanaraq hərəkət edir. Təbiətin varlığı od, hava, su, torpaq ilə ifadə olunurdu, müasir dövrdə isə Günəş - biosfer kimi ifadə olunur, onun fəaliyyəti Günəşlə bağlıdır. Günəş sıxılıb-açılır, fiziki mənada potensial enerji kinetik enerjiylə və yaxud da əksinə hərəkət edir, insan ürəyi də eyni qaydada fəaliyyətdədir. İnsanda böyük və kiçik qan dövranı var, o, biosferdə də eyni qaydada ifadə olunur. Böyük geoloji dövran kiçik biogeokimyəvi dövran adlanır.

Geoloji-böyük dövran Günəş enerjisilə yerin dərinlik enerjisinin qarşılıqlı təsirilə baş verir, biosferdə yerin dərin qatlarında maddələrin qeyri-bərabər paylanması ilə yerinə yetirilir, buraya quru ilə okean arasında atmosfer «vasitəsilə» suyun dövranı da əlavə edilə bilər, çünki Dünya okeanı səthindən buxarlanan su quruya aparılır, atmosfer çöküntüləri hesabına dövrü olaraq dəniz və okeanlara tamamilə çirklənmiş formada axıb gəlir. Ekoloji mühəndisdiyin qaydalarına əməl edilmədiyinə görə böyük dövranda ekoloji tarazlıq pozulur.

*(davamı var)*

# Avtomobil idxalı 9135 ədəd azaldı



2014-cü ilin yanvar-may ayları ərzində Azərbaycana 30 576 ədəd avtomobil idxal olunmuşdur.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, ötən ilin ilk 5 ayı ilə müqayisədə avtomobil idxalı 9135 ədəd və ya 23% azalıb. Minik avtomobillərinin idxalı isə 8372 ədəd və ya 23,4% azalaraq, 27 444 ədədə düşmüşdür.

Cari ilin yanvar-may ayları ərzində 27 444 ədəd əsasən, adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri, 2 765 ədəd yük daşımaq üçün motorlu nəqliyyat vasitələri, 216 ədəd xüsusi təyinatlı motorlu nəqliyyat vasitələri, 151 ədəd sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri idxal olunmuşdur.

“QAFQAZ İNKİŞAF BANKI” ASC-NİN 31 dekabr 2013-cü il tarixinə balans hesabatı

| MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT | 31 dekabr 2013 | 31 dekabr 2012 |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 737,307 | 2,087,662 |
| Mərkəzi banklardakı məcburi ehtiyatlar | 1.386,628 | 224,490 |
| Banklardan alınacaq vəsaitlər | 2,950,119 | 261,764 |
| Müştərilərə verilmiş kreditlər | 112.743.125 | 91,917,877 |
| Binalar və avadanlıq | 6,483,585 | 5,662,812 |
| Qeyri-maddi aktivlər | 141,105 | 113,105 |
| Digər maliyyə aktivləri | 337,436 | 337,436 |
| Digər aktivlər | 1,012,190 | 139,126 |
| **Cəmi aktivlər** | **125,791,495** | **100,744,272** |
| **Öhdəliklər** | | |
| Banklara ödəniləcək vəsaitlər | 5,676,645 | 2,794,496 |
| Müştəri hesabları | 10,912,471 | 13,407,834 |
| Digər banklara ödəniləcək vəsaitlər | 55,560,808 | 55,672,907 |
| Zəmanət və digər şərti öhdəliklər üzrə ehtiyatlar | - | - |
| İmtiyazlı səhmlər | - | 3,000,000 |
| Təxirə salınmış vegi öhdəliyi | - | 5,170 |
| Digər öhdəliklər | 400,841 | 235,470 |
| **Cəmi öhdəliklər** | **72,550,765** | **75,115,877** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 52,000,000 | 27,200,000 |
| Imtiyazlı səhmlər | 3,000,000 | - |
| Yığılmış məzənnə fərqləri | (522,990) | (253,924) |
| Yığılmış zərər | (1,246,309) | (1,317,681) |
| Nəzarət olunmayan kapital payı | 10,029 | - |
| **Cəmi kapital** | **53,240,730** | **25,628,395** |
| **Cəmi öhdəliklər və kapital** | **125,791,495** | **100,744,272** |

**MƏCMU GƏLİR HESABATI**

| | 31 dekabr 2013-cü il tarixində bitən il üzrə | 31 dekabr 2012-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| Faiz gəlirləri | 10,227,715 | 5,402,970 |
| Faiz xərcləri | (4,244,518) | (2,854,931) |
| **Xalis faiz gəlirləri** | **5,983,197** | **2,548,039** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatlar | (4,292,677) | (1,555,575) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | **1,690,520** | **992,464** |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir | 142,825 | 20,869 |
| Haqq və komissiya gəlirləri | 474,402 | 259,484 |
| Haqq və komissiya xərcləri | (69,525) | (24,187) |
| Digər gəlirlər | 40,912 | 52,440 |
| **Əməliyyat gəliri** | **2,279,133** | **1,301,070** |
| Əməliyyat xərcləri | (1,890,794) | (1,421,842) |
| Zəmanət və digər şərti öhdəliklər üzrə ehtiyatların qaytarılması/(ayrılması) | - | (54,124) |
| **Vergidən əvvəlki (zərər) /gəlir** | **388,339** | **(174,896)** |
| Mənfəət vergisi üzrə gəlir/(xərc) | (15,938) | 249,152 |
| **İl üzrə xalis mənfəət** | **372,401** | **74,256** |

“Qafqaz İnkişaf Bankı” ASC-nin illik balansı “RSM” Azerbaycan tərəfindən yoxlanılmışdır.

# Mətbuat Şurasında hərbi jurnalistin kitabının təqdimatı keçirilib




**Mətbuat Şurasında hərbi jurnalist, ehtiyatda olan polkovnik-leytenant İbrahim Məsimoğlunun «İlk briqadanın ibrətli döyüş dərsləri» kitabının təqdimat mərasimi keçirilib.**

Tədbiri giriş sözü ilə MŞ sədri Əflatun Amaşov açaraq bildirib ki, cəmiyyətdə vətənpərvərlik hisslərinin təbliğinə hər zaman böyük ehtiyac duyulmaqdadır. Bu hissin aşılanmasında müharibədə iştirak etmiş şəxslərin qələmə aldıqları kitabların roluna toxunan Ə.Amaşov belə nəşrlərin gənc nəslə örnək kimi təqdim edilməsinin zəruriliyini əsaslandırıb. O, «İlk briqadanın ibrətli döyüş dərsləri» kitabının bu mənada böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Ə.Amaşov ərsəyə gətirdiyi yaradıcılıq nümunəsinə görə İ.Məsimoğlunu MŞ-nin diplomu ilə təltif edib.

Hərbi jurnalist və ekspert Üzeyir Cəfərov qəhrəmanlıq salnaməsi yaradan şəxslərin keçdikləri döyüş yolunun öyrənilməsinin vacibliyini bildirib. O qeyd edib ki, mövcud istiqamətdəki işlərin gücləndirilməsi üçün onlara mütəmadi şəkildə müraciət olunmalı, bu fəaliyyət sistemli şəkildə aparılmalıdır. O, təqdimatı keçirilən nəşri bu baxımdan mühüm mənbə kimi dəyərləndirib.

Cəbhədə keçdiyi döyüş yolundan bəhs edən 701 saylı hərbi hissənin Veteranlar Şurasının sədri Əlirza Qənizadə kütləvi vətənpərvərlik təbliğatını nəzərdə tutan kitabların çapını cəmiyyətdə ruh yüksəkliyi yaradan mühüm vasitələrdən biri olaraq qiymətləndirib. Söhbətini Kəlbəcərdə düşmən qüvvələrinə qarşı vuruşmuş azərbaycanlı döyüşçülərin rəşadəti barədə fikirlərlə davam etdirən Ə.Qənizadə bildirib ki, həmin şəxslərin igidlikləri olmasaydı, Kəlbəcərdə xalqımıza qarşı ikinci soyqırımı baş verəcəkdi. O, çıxışında həmçinin sözügedən bölgə ilə bağlı həqiqətlərin dünyaya tanıdılmasında bu cəhətə söykənilmənin əhəmiyyətini əsaslandırıb.

MŞ İdarə Heyətinin üzvü, «Paralel» qəzetinin baş redaktoru Tapdıq Abbas hərbi vətənpərvərlik təbliğatının düzgün qurulmasında ömrünü-gününü torpaqlarımızın müdafiəsinə həsr etmiş şəxslərin əməyindən istifadənin vacibliyini önə çəkib. Belə adamların ictimai həyatda aktiv iştirakının təminatı üçün stimullaşdırıcı tədbirlərin təşkilinə ehtiyacın duyulduğunu deyib.

Tədbirdə çıxış edənlərdən «Hərbi vətənpərvərlik və mütəxəssis hazırlığı mərkəzi» MMC-nin şöbə rəisi Arzuman Kosayev, müharibə veteranları Füzuli Rzaquliyev, Habil Şirinov, Bəhrəm Əzimov, İntiqam Mirzəyev, jurnalistlər Anar Vəziroğlu, Müzahim İsmayılzadə və digərləri təqdimatı keçirilən nəşrin spesifik cəhətlərinə toxunaraq onun Azərbaycanın, yaxın keçmişimizin tarixi ruhunun yaşadılması baxımından önəminə diqqət çəkiblər.

Sonda çıxış edən İ.Məsimoğlu yaradıcılığına verilən dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib.

Qey edək ki, ehtiyatda olan polkovnik-leytenant İbrahim Məsim oğlu İsgəndərov Gəncə şəhərində anadan olub. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. Bir sıra mətbu orqanlarda çalışıb. 701 saylı hərbi hissənin tərkibində Kəlbəcər, Füzuli, Ağdam və Tərtərdə erməni işğalçılarına qarşı hərbi əməliyyatlarda iştirak edib. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin orqanı olan «Azərbaycan Ordusu» qəzetində müxtəlif vəzifələrdə çalışmış İ.Məsimoğlu 9 il «Hərbi bilik» və «Hərbi bülletenlər» jurnalları redaksiyasının baş redaktoru vəzifəsində xidmətdən sonra ehtiyata buraxılıb. «İlk briqadanın ibrətli döyüş dərsləri» kitabı hərbi jurnalistin işıq üzü görən sayca ikinci kitabıdır.



Tahirə Əsgərova - 80

# Fədakar müəllim, qayğıkeş insan



Əsgərova Tahirə Vahab qızı 1934-cü ilin 28 iyun tarixində Bakı şəhəri Əzizbəyov (indiki Xəzər) rayonunun Şüvəlan qəsəbəsində anadan olmuşdur. Orta məktəbi qızıl medalla bitirmişdir. 1952-ci ildə Azərbaycan SSR Maliyyə Nazirliyinin Bakı Maliyyə-Kredit Texnikumuna daxil olmuş, 1955-ci ildə qeyd edilən texnikumda SSRİ Dövlət büdcəsi ixtisası üzrə maliyyəçi ixtisasını fərqlənmə diplomu ilə bitirmişir. T.V.Əsgərova 1955-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təqdimatı ilə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun «İqtisad» fakültəsinə daxil olmuş və 1959-cu ildə göndərişlə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində «Maliyyə və kredit» fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1959-cu ildən Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) «Maliyyə-kredit» fakültəsinin Maliyyə kafedrasında laborant vəzifəsindən müəllim və baş müəllim vəzifəsinə qədər yüksəlmişdir. T.V.Əsərova ADİU-da işlədiyi illər ərzində bir neçə dəfə ixtisasartırma kurslarında, 1975-1976-cı ildə, 1984-cü ildə Moskva Maliyyə İnstitutunda müəllimlərin təkmilləşdirmə ixtisası üzrə kurslarda iştirak etmişdir. 1985-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu nəzdində «Elmi təcrübə» ixtisasartırma haqqında vəsiqə almışdır. 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu nəzdində olan gənc müəllimlərin pedaqoji bacarığını artırma kursunda olmuş və həmin ildə kursu müvəffəqiyyətlə bitirmişdir.

2004-cü ilin 20 sentyabrından 20 dekabr tarixinədək Müəllimləri Təkmilləşdirmə İnstitutunda «Maliyyə-kredit» ixtisası üzrə kursu bitirmişdir. Universitetin konfranslarında, elmi seminarlarda iştirak etmiş, institutun həmkarlar təşkilatının katibi kimi fəaliyyət göstərmişdir.

1998-ci ildə Azərbaycan Respublikasının «Əmək veteranı» adına layiq görülmüşdür.

T.V.Əsgərova 2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin rektorluğu tərəfindən «8 Mart - Beynəlxalq Qadınlar Günü» münasibətilə Fəxri fərmanla təltif olunmuşdur.

T.V.Əsgərova müxtəlif fənlərdən, o cümlədən "Bank işi", "Pul krediti və banklar", «Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul kredit sistemi", "Pul kredit sisteminin tarixi", "Qiymətli kağızlar" və s. fənlər üzrə mühazirə və məşğələ dərslərini son tədris tələblərinə yüksək səviyyədə tədris edir. T.V.Əsgərova özünə qarşı çox tələbkardır, sahəsinin elmi araşdırmalarını ardıcıllıqla aparan, öz elmini, bilik və bacarığını təkmilləşdirmək üçün daima çalışan müəllimlərimizdəndir. Universitetdə işlədiyi müddət ərzində T.V.Əsgərova universitetin və kafedranın elm, tədris və ictimai tədbirlərində iştirak etmişdir. Yüzlərlə tələbələrin diplom işlərinə rəylər vermiş və rəhbərlik etmişdir, çoxsaylı metodiki elmi pedoqoji nəşrlərin, elmi məqalə və tezislərin müəllifidir. O, öz ixtisasını həm nəzəri, həm də praktik baxımdan dərindən bilən, intizamlı, işgüzar, kafedranın tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirən, fakültənin və universitetin ictimai həyatında yaxından iştirak edən əməkdaşlardan biridir. O, müəllim işlədiyi müddətdə özünü bacarıqlı mütəxəssis kimi göstərmişdir.

T.V.Əsgərova Bank işi kafedrasında elmi-tədqiqat işlərini daim yerinə yetirmiş, dərsliklərin, dərs vəsaitlərinin yazılmasında iştirak etmişdir. Müəyyən illərdə müxtəlif jurnallarda yüzlərlə elmi-məqalələri çap olunmuşdur. 2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin elmi-tədqiqat işlərinə həsr olunmuş konfransda "Qloballaşma şəraitində maliyyə-kredit təşkilatlarının fəaliyyətinin hökumət orqanlarının fəaliyyəti ilə qarşılıqlı əlaqəsi" adlı tezisi nəşr olunmuşdur. T.Əsgərovanın Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi xəbərləri adlı jurnalının 2014-cü il yanvar-mart buraxılışında "Maliyyə sisteminin formalaşmasında dövlət büdcəsinin rolu" adlı elmi məqaləsi çap olunmuşdur. 2014-cü ildə T.V.Əsgərovanın yazdığı "Dünya ölkələrinin bank sistemi" adlı dərs vəsaiti nəşr edilmişdir.

Hazırda «Bank işi» kafedrasında baş müəllim vəzifəsində çalışır.

Ailəlidir, 2 övladı, 5 nəvəsi, 4 nəticəsi vardır.

Tahirə xanımı yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, işində müvəffəqiyyətlər arzulayırıq. Qoy, bu gülərüz, mehriban, qayğıkeş, ürəyi həyat eşqi ilə çırpınan ananın, nənənin, müəllimənin çöhrəsindəki nur heç vaxt sönməsin, dodaqlarından təbəssüm əksik olmasın.

*"İQTİSADİYYAT"*

# Süd istehsalının artım dinamikası aşağı düşüb



Son dövrlər xaricdən xeyli sayda damazlıq heyvanlar alınmasına və yeni süd emalı zavodlarının işə düşməsinə baxmayaraq, süd istehsalı cüzi artır.

Dövlət Statistika Komitəsininin məlumatına görə, cari ilin əvvəlindən 753 min ton süd istehsal olunmuş, 2013-cü ilin müvafiq dövrünə nisbətən (741.1 min ton) süd istehsalı 2.8 faiz artmışdır.

2013-cü ilin 5 ayı ərzində süd istehsalı 2012-ci ilin anoloji dövrü ilə müqayisədə 5.9 faiz artmışdı.

Qeyd edək ki, 2013-cü ildə Azərbaycanda 1,82 milyon ton süd istehsal edilib. Azərbaycanda adambaşına süd istehlakı təxminən 290 kq təşkil edir, bu hesabla Azərbaycanın təxminən 9,5 milyon nəfər olan əhalisinin tələbatının ödənilməsi üçün 2,7 milyon ton süd tələb olunur. Artıq tələb olunan südün təxminən 70%-i ölkəmizdə istehsal olunur, qalan 30% isə idxal hesabına ödənilir.

Normaya görə, Azərbaycanda adambaşına 360 kq süd istehlak olunmalıdır. Bu hesab ilə ölkə əhalisinin südə olan tələbatı 3,4 milyon tondur. Bu səviyyəyə çatmaq üçün istehsal olunan süd təxminən 2 dəfə artırılmalıdır.

# Banklar biznes kreditlərinin verilməsini artırıblar




Azərbaycanda fəaliyyət göstərən banklar Azərbaycan Prezidenti İlham Əliyevin "Banklar iqtisadiyyatın real sektoruna kredit şəklində daha çox vəsait ayırmalıdırlar" deyə bildirdiyi tövsiyəsinə az da olsa əməl etməyə başlayıblar.

Mərkəzi Bankın saytında yerləşdirilmiş məlumatlara görə, may ayının 1-nə bankların kredit qoyuluşunun cəmi həcmi 16,24 milyard manat təşkil etmişdir. Kredit qoyuluşunun 9,63 milyard manatını biznes kreditləri, 6,61 milyard manatını isə istehlak kreditləri (ev təsərrüfatlarına verilən kreditlər) təşkil edib. Bu ilin əvvəlində isə kredit qoyuluşlarının 9,21 milyard manatını biznes kreditləri, 6,21 milyard manatını istehlak kreditləri təşkil edirdi. Yəni, bankların verdiyi biznes kreditləri cəmi 420 milyon manat, istehlak kreditləri isə 400 milyon manat artıbdır. Ötən ilin anoloji dövründə isə istehlak kreditləri 597 milyon manat, biznes kreditləri isə 178 milyon manat artmışdı. Bir sözlə, banklar biznes kreditlərinin verilməsini təxminən 2 dəfəyə yaxın artırmış, istehlak kreditlərinin verilməsini isə 33% azaltmışlar.

May ayının 1-nə olan məlumata görə, banklar sənaye və istehsal sektoruna 1,91 milyard manat kredit veriblər, bu da ilin əvvəli ilə müqayisədə 392 milyon manat çoxdur.

Mütəxəssislər bildirirlər ki, əslində biznes kreditlərinin artmış kimi görünməsi əsasən korportiv seqmentə xidmət göstərən bankların hesabına baş verib. İstehlak kreditlərinin azalması isə kredit şərtlərinin sərtləşdirilməsi ilə bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin fevral ayında, "Azərbaycanda son illərdə bank sektoru da sürətlə inkişaf etmişdir. Bizim banklarımız böyüdü, gücləndi. Hesab edirəm vaxt gəlib çatıb ki, banklar daha çox iqtisadiyyatın real sektoruna maliyyə resurslarını ayırsınlar. Halhazırda belə deyil, ancaq bankların funksiyalarından biri də ölkə iqtisadiyyatına təkan verməkdir. Əhali tərəfindən banklara inamın artırılması üçün dövlət çox böyük tədbirlər görmüşdür. Bilirsiniz ki, əmanətlər sığortalanır və bu addım bankalara olan inamı böyük dərəcədə artırmışdır. Ona görə də banklar da öz sosial məsuliyyətini dərk etməlidir və iqtisadiyyatın real sektoruna kredit şəkilində daha çox vəsait ayırmalıdırlar", - deyə bildirmişdi.

*Seymur Yunusov*

Azərbaycan iqtisadiyyatı tarixi müstəvidə

# Atropatenanın iqtisadi həyatı

Qədim Azərbaycan dövləti Atropatenada əkinçilik və maldarlıq inkişaf etmişdir. Əkinçilik Azərbaycanın təsərrüfat həyatı məsələlərinin əsas sahələrindən birini, habelə Təbriz əhalisinin, onun özəyini təşkil edir. Lakin tədqiqatçılar belə bir aktual məsələ ilə nisbətən az məşğul olmuşlar. Qeyd etmək lazımdır ki, son illərdə T.Bünyadovun Azərbaycanda əkinçiliyin inkişafına dair nəşr edilmiş monoqrafiyasını bu barədə yazılmış yeganə əsər hesab etmək olar.

A.Fazili yazır ki, Azərbaycan dedikdə, təqribi olaraq Zaqros dağlarından Xəzər dənizinə, Qafqaz sıra dağlarının cənub ətəklərindən müasir Xəmsə mahalı daxil olmaqla, Qəzvin və Həmədan əyalətinə qədər uzanan geniş bir ərazini nəzərdə tuturuq.

Məlumdur ki, qədimdə Azərbaycanın şimal hissəsi antik mənbələrdə Albaniya, ərəblərdə Alran, xalq arasında Aran, cənubu isə Atropatena adlanırdı. Lakin həmin ərazidə tarix boyunca yaşamış tayfa və qəbilələr iqtisadi-ictimai inkişaf nöqteyi-nəzərindən eyni səviyyədə olmasalar da, çox ehtimal ki, biri digərinə nisbətən oxşar və yaxın olmuşlar.

T.Bəhrami Azərbaycanda olan torpaq növlərini aşağıdakı qruplara bölür: qumsal-gilli, gilli-qumsal, qara və çökümtülü toraqlar. Səhənd yaxınlığında olan ərazi, habelə Təbriz ətrafı qumsal, Marağa zonası gilli-qumsal, Miyandab gilli, Urmiya gilli-qumsal, Qaradağ, Mahabad gilli-qumsal və qara, Miyandabın bir hissəsi isə laylı torpağa malikdir.

İranın təbii-coğrafi xüsusiyyətlərini tədqiq etmiş M.P.Petrov Azərbaycanda olan torpaqları kül rəngli və rütubətli qara torpaq növlərinə bölür. T.Bəhrami Azərbaycanı iqliminə görə üç zonaya ayırır: soyuq, isti və mülayim. Soyuq zonaya Savalan və Səhənd ətrafı, isti zonaya Araz sahili-Muğan, mülayim zonaya isə Miyandab və Sulduz rayonları daxildir. Səhənd dağına yaxın olan Təbrizdə bəzən qışda havanın soyuqluğu mənfi 30 dərəcəyə qədər aşağı enir. Belə hallar meyvə ağacları üçün xətərlidir, çünki köklərini don vurur. Savalan dağının şərq ətəyində yerləşən Ərdəbil şəhərində isə bəzi vaxtlar qışda mənfi 33 dərəcə soyuq olur.

Təbriz, eləcə də Ərdəbil zonasında yayda havanın hərarətinin bəzi hallarda 38-40 dərəcəyə qədər yüksəlməsinə baxmayaraq, ümumiyyətlə, hər iki ərazinin qışı çox soyuq, yayı isə mülayimdir. Azərbaycanın iqlimi, xüsusilə Xəzər dənizinə yaxın olub, dəniz səviyyəsindən hündür olmayan yerlər şimaldan əsən soyuq küləklərin tam təsiri altındadır. Hətta Sibir tundralarında əsən küləklər Xəzər dənizini maneəsiz keçərək, özü ilə Araz sahili, Muğan və Astara zonasına rütubətli buludlar gətirir. Bu səbəbə görə də həmin ərazidə ardı-arası kəsilməyən yağıntılar olur. Azərbaycan ərazisinin başqa yerlərində mövcud olan hündür dağlar şimal küləklərinin qarşısını ala bildiyi üçün həmin küləklər bir o qədər təsiredici deyildir. Burada Bağro, Büzğüş, Savalan və Səhənd dağları nəzərdə tutulur. Beləliklə, Azərbaycanın şimal-şərq rayonları səthinin alçaqlığı və dəniz yaxınlığı ilə əlaqədar iqliminin rütubətli, çox yağmurlu olması ilə qalan yerlərdən fərqlənir. Bu göstərdiyimiz zonada payız mövsümündə yağıntılar daha tez başlayır. Aqrotexniki qaydalara görə, belə şərait payız əkinçiliyi üçün daha əlverişlidir. Ona görə də, həmin ərazi tarixən özünün payız bitkiləri ilə məşhurdur.

Azərbaycanın göstərdiyimiz ərazisində qədim dövrlərdən etibarən torpağa səpilmiş arpa, buğda və sairə dənli bitkilər payız yağmurluğunun tez başlanması ilə əlaqədar iki, bəzi hallarda isə üç dəfə məhsul verir. Bu müddəanı qədim mənbələrlə yanaşı, etnoqrafik müşahidələr də bir daha təsdiq edir. Məlumdur ki, arpa, buğda və başqa dənli bitkilər yığılan zaman (biçildikdə) məhsulun müəyyən hissəsi istər-istəməz tarlaya tökülür. Payız yağmurları tez başlandığına görə həmin bitkilər yenidən göyərir. Bu isə xalq arasında "xora" adlanır. Əkinçi həmin tarlanı yazda şumlayıb yaz bitkiləri üçün (paxlalı bitkilər və habelə bostan əkini nəzərdə tutulur) istifadə etmədikdə, "xora" ikinci dəfə məhsul verir. Strabon Atropatena və Albaniya ərazisində müşahidə edilmiş bu faktı öz coğrafi əsərində də göstərmişdir.

S.Nəfisiyə görə, Sasanilər dövründə əsas gəlir torpaq vergisi batəbindən toplanılırdı. Bu vergi isə "xərac" adlanırdı. "Gizit" və yaxud "sərgzit" (can vergisi) ərəblərdə "cizyə" termini ilə əvəz edilir. Bu vergi bir dəfə əhalidən toplanırdı. Lakin torpaq vergisinə gəldikdə isə, o, məhsulun miqdarından asılı olaraq, onun üçdə bir və yaxud altıda birini təşkil edirdi.

Bəzi hallarda isə torpaq vergisi məhsulun onda birindən yarısına qədər ödənilirdi. Əkin sahəsinin yaxın olub-olmaması da verginin miqdarına təsir edirdi. Qocalar, qadınlar, habelə uşaqlar torpaq vergisindən azad idilər. Gizit vergisi əsas etibarı ilə başqa dinə (xristian, yəhudi və s.) inananlardan toplanılırdı. Qubadın dövründə, 607-ci ildə dövlətin vergi və başqa gəlir fondunun miqdarı altı milyon dirhəmə bərabər olmuşdur. Ümumiyyətlə, verginin dəqiq miqdarı müəyyənləşdirilmədiyinə görə məmurlar əhalidən istədikləri miqdarda vergi toplayırdılar.



A.Fazili göstərir ki, Atropatenada, xüsusilə Təxt-e Süleyman, habelə başqa rayonlarda aparılmış arxeoloji qazıntıların nəticəsi bir daha sübut etdi ki, bu ərazidə vaxtilə əkinçilik, xüsusən maldarlıq yüksək dərəcədə inkişaf etmişdir. Qazakanın mərkəzində yerləşən göldən ətraf torpaqları sulamaq məqsədilə 7 süni suvarma kanalı çəkilmişdi. Bu kanalların izi hal-hazırda qalmaqdadır. İlk mənbələr bu ərazidə atçılığın yüksək dərəcədə inkişaf etdiyini sübut edir. Midiya-Atropatenada vaxtilə bəslənilən atlar dünya şöhrəti qazanmışdı. Polibinin göstərdiyinə görə, çarın at ilxıları, bütövlükdə midiyalıların əlində idi. Onlar olduqca çox taxıl və mal-qaraya malik idilər. Onların ərazisində olan geniş otlaqlar atların bəslənilməsində mühüm rol oynayır. Bu atlardan yük, qoşqu və minik vasitəsi kimi istifadə edilirdi. Mənbələrin göstərdiyinə görə, "Nisa" atları məhz bu ərazidə bəslənilirdi. Əhəməni, Atropaten, Parfiya, sonralar isə Sasani və ərəb xilafəti dövründə burada bəslənilən atlar dünya bazarında özünəməxsus yer tuturdu. Urmu gölünün ətrafı böyük çəmənliklərə malik olmuşdu.

*(davamı var)*

## "NEMAN IKF" MMC VÖEN-1500049591

## 31 dekabr 2013-cü il tarixə (icmal) Balans hesabatı

manat

| | Qeyd | 31.12.2013-cü il | 31.12.2012-ci il |
|---|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar (əsas vəsaitlər) | 7 | 2734388.94 | 2649794.46 |
| Qeyri-maddi aktivlər | | 574415 | 574415 |
| İnvestisiyalar | | 499487.46 | 277671.23 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | 3000000 | 3000000 |
| | | **6808291.4** | **6501880.69** |
| Qısa müddətli aktivlər | 8 | 1491395.81 | 1463536.6 |
| Ehtiyyatlar | 9 | 242002.85 | 317791.53 |
| Qısa müddətli debitor borcları | 11 | 24837.06 | 5047.1 |
| Sair qısa müddətli aktivlər | 10 | 341530.43 | 273812.21 |
| | | **2099766.15** | **2060187.44** |
| **Cəmi aktivlər** | | **8908057.55** | **8562068.13** |
| Ödənilmiş nominal (Nizamnamə) kapital | 16 | 3000100 | 3000100 |
| Bölüşdürülməmiş mənfəət | | 160095.48 | -45973.6 |
| | | **3160195.48** | **2954126.4** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 14 | 2738.17 | 174.11 |
| **Qısamüddətli kreditor borcları** | 15 | 611842.42 | 488405.71 |
| **Sair qısa müddətli öhdəliklər** | | 5133281.48 | 5119361.91 |
| | | **5747862.07** | **5607941.73** |
| **Cəmi öhdəliklər** | | **5747862.07** | **5607941.73** |
| **Cəmi kapital və öhdəliklər** | | **8908057.55** | **8562068.13** |

**Mənfəət və zərərlər hesabatı (İcmal)**

| | qeyd | 2013-cü il | 2012-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 17 | 962257.46 | 824215.46 |
| Satışın maya dəyəri | 20 | 839287.88 | 868747.82 |
| **Ümumi mənfəət (zərər)** | | **122969.58** | **-44532.36** |
| Sair əməliyyat gəlirləri (icarədən) | | 2000.00 | 159362.04 |
| İnzibati xərclər | | 34029.91 | 33962.38 |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **90939.67** | **80867.30** |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | | **90939.64** | **80867.30** |
| Mənfəət vergisi | | 18187.92 | 16173.46 |
| Hesabat dövründə xalis mənfəət | | **72751.72** | **64693.84** |

**31 dekabr 2013-cü il tarixə Kapitalda dəyişikliklər hesabatı (İcmal)**

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (zərər) |
|---|---|---|
| 01.01.2012-ci il tarixə qalıq | **3000100.00** | **22756.00** |
| 2012-ci il üzrə mənfəət (zərər) | 64693.84 | 64693.84 |
| Elan edilmiş dividendlər | -106.09 | -106.09 |
| 31.12.2012-ci il tarixə qalıq | **3064687.75** | **87343.75** |
| 2013-cü il üzrə xalis mənfəət (zərər) | | 72751.72 |
| | **3064687.75** | **160095.47** |

Maliyyə hesabatlarının mörtəbərliyi Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 05 yanvar 2010-cu il tarixli SA/237 saylı 047441 seriyalı lisenziyaya əsasən fəaliyyət göstərən Sərbəst auditor Əliyev Xaləddin Cəlal oğlu tərəfindən təsdiqlənmişdir.

# Bu, taledir, seçən də Böyük Yaradan!

*(əvvəli ötən sayımızda)*

*İmamverdi İSMAYILOV*



Ölümqabağı etiraflar sənin böyüklüyün deyil, böyük səhvlərinin siyahısıdır.

Ölümqabağı etiraflar sənin böyüklüyün deyil, böyük səhvlərinin siyahısıdır.

İlanın dil çıxarmağı Allah bəndəsi qarşısında “Ağ Bayraq” qaldırmasıdır.

Əl qaldırmaq - əlini qaldırmaq: fərqli şeylərdir.

Ehtiyatlı davran, ehtiyatlı yanaş, ehtiyatlı danış - ziyan görməzsən.

Hərənin bir yaxşı cəhəti var: o asılıdır sən necə yanaşırsan və necə baxırsan.

İçin çölü, çölün içi - biri bağlı, biri açıq. Kaş ki, için də çölün kimi görünə biləydi...

Yer üzündə nə qədər rəngarəng həşərat, canlı, bitki, ot-ələf varsa, bir o qədər də müxtəlif fərqli insan var... Bu, dünyanın yaşam tərzidir; biri digərinə qidadır, biri olmayanda o birisi də yaşaya bilməz...

Bibim deyərdi ki, bunlar mərdimazar nəsildilər, babalarından bəri üzlərində qarğış damğası var.

Ağlı, mərifəti, savadı, qabiliyyəti, danışığı, davranışı, oturuşu, duruşu - hamısı, hamısı tam halda düzgün olan insan varmı dünyada?..

Sən hikmətə bir bax: alnım açıq, üzüm ağ - niyə alnım, niyə üzüm? Gözüm səndən su içmir - niyə məhz gözüm? Qəlbim səndən sındı -niyə qəlbim? Bu hikməti yazan dünyanın ən böyük filosofu deyilmi?!..

Hamı görür, ancaq hamı müşahidə edə bilmir, hamı fikirləşir, lakin hamı düşünmür...

Döyüşkən və mübariz OĞLUN özü boyda da ürəyi olur və tək elə bu ürəklə də yaşaya və vuruşa bilər.

Sevincin və kədərin həddi, qədəri insanın gözlərindən oxunur.

Oturmağı bacarmayan dözümlü ola bilməz.

Söz-söhbətə, qeybətə,höcətə rəvac verən və inanan rəhbər zəif, aciz və hərdəmxəyal olar.

Zəif saplağından sallanan meyvə, ölümünü dəhədüş gözləyən insan - eyni anları yaşayır...

Hərə bir cür ölür: bəladan, qəzadan, təsadüfdən - bu, sənlik deyil - yazıdandır .

İnsanın ölüm ayağında can verməsi ən ağıllı və ən ağrılı anlarıdır...

Özünə kənardan baxa bilməyən adam həmişə başqasına həsəd aparacaq, gözü başqasında olacaq.

Pis insan, pis həyat və pis iş yoxdur, ancaq pis münasibət və pis baxış var.

Kimdəsə gördüyün nöqsanı Allah sənə də verə bilər, nöqsan tutub "alver" etməyin yeri yoxdur.

Hər bildiyin və hər gördüyün həqiqəti dilə gətirib üzə söyləmək, heç də həmişə qəbul olunub hörmət gətirmir və heç də sənin həqiqəti sevdiyinə dəlalət etmir.

Ağrı gələndə ağıl da gəlir... Gec gələn ağıl güc gələ bilməz.

Danışanda da, dinləyəndə də, hər hansı qərar qəbul edəndə də özünə qulaq asmağı bacarmalısan...

Rənglərin çalarlarını ayırd edə bilməyən günlərin də fərqini bilməz..

Şöhrət həm də düşməndir: ondan qorunmağı da bacarmalısan.

Dayaz və kasad adam mənsəb və şöhrət yiyəsi olan kimi çaşıb harınlaşır.

Günəş sübh çağı ağır-ağır və əzabla doğulur, qüruba gedəndə isə çox tələsik... Bəlkə dünyanın faniliyinə işarədi bu?!

Yasında kimin ağlamağı, toyunda kimin oynamağı səni qaldırar da, yandırar da..

Külək, güllə, hədəf, paxıllıq və həsəd öndə gedənləri yaxalar.

Göz yaşları kədər bulağının damcılarıdır...

*(davamı var)*

# Azərbayacan iqtisadiyyatı 2,8% böyüyüb



**Ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar, habelə fiziki şəxslər tərəfindən 2014-cü ilin ötən beş ayı ərzində 23.4 milyard manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 2.8 faiz çox Ümumi Daxili Məhsul ( ÜDM) istehsal edilmişdir.**

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, ümumi daxili məhsulun 61.2 faizi məhsul istehsalı sahələrində, 31.7 faizi xidmət sahələrində yaradılmış, 7.1 faizi isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Əhalinin hər nəfərinə ÜDM istehsalı 2499.8 manat (3187.4 ABŞ dolları) təşkil etmişdir.

Əlavə dəyərin 55.4 faizi qeyri-neft sektorunda istehsal olunaraq müqayisə edilən dövrdə 8.3 faiz artmış, neft sektorunda isə 3.6 faiz azalmışdır.

Ev təsərrüfatlarının və hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət göstərənlərin istehsal etdikləri sənaye məhsulu da nəzərə alınmaqla yanvar-may aylarında 14.1 milyard manatlıq və ya 2013-cü ilin müvafiq dövründəkindən 2.1 faiz az sənaye məhsulu istehsal edilmişdir. Məhsulun 73.3 faizi mədənçıxarma bölməsində, 20.5 faizi emal bölməsində, 5.6 faizi elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0.6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur.

Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 3.4 faiz artmış, neft sektorunda isə 3.0 faiz azalmışdır.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr



- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

## Dünya inciləri

# Mediçilərin xəzinəsi: kilsə-kitabxana



Kilsələr şəhəri Florensiyanın digər bir gözoxşar memarlıq və ibadət abidəsi Müqəddəs Lorenzo bazilikasıdır. Şəhərin mərkəzi hissəsində yerləşən kilsə ilk dəfə IV əsrin sonunda, sonra isə XI əsrdə roman stilində yenidən tikilmişdir. Kilsənin İntibah üslubunda olan müasir tikilisi XV əsrdə Filippo Brunelleski sayəsində meydana gəlmişdir. Eləcə də bu kilsə, ata Kozimo Mediçidən tutmuş, Kozimo III-yə kimi bütün Mediçi sülaləsinin üzvlərinin dəfn yeridir.

Kozimo Mediçinin tapşırığı ilə Brunelleski köhnə Sakristiyanı yenidən tikdi. Sonralar Mikelancelonun layihəsi ilə yeni Sakristiya, Lorenzo və qardaşı Culyano Mediçinin məzarları və Laurenziana kitabxanası tikilir. Qurbangahın yanında Kozimo Mediçinin məzarı yerləşir. Roma papası Leo X Mikalanceloya kilsəni bərpa etməyi tapşırır. Amma bu iş başa çatdırıla bilmir. XVII əsrdə kilsədə Şahzadələr kapellası tikilir. Kapellanın tikintisinə 1604-cü ildə Matteo Nicetti başlayır. Kapellada üzərində Toskan Hersoqluğunun gerbləri təsvir olunan mərmər bəzəklər və mozaikalar vardır. Buraya sadəcə iki heykəl: I Ferdinand və Kozimo II Mediçinin heykəli qoyulmuşdur.

Bazilikada çoxsaylı incəsənət nümunələri yerləşir. Donatello, Andrea del Verrokyonun, Mikelancelonun əl işləri kilsənin əzəmətini daha da artırır.

1520-ci ildə gələcəkdəki Kliment VII - Culio Mediçi Mikelanceloya Şahzadələr kapellası üçün dörd alleqorik heykəltəraşlıq nümunəsini sifariş edir: Gündüz, Gecə, Axşam, Səhər. Kapellada Möhtəşəm Lorenzo və Pazzilərin təzyiqi zamanı dünyasını dəyişmiş qardaşı Culyanonun qəbrləri yerləşir.



Laurenziana kitabxanasının əsası Kozimo Mediçi tərəfindən 1444-cü ildə qoyulmuşdur. Ev kitabxanası tikməkdə əsas məqsəd əlyazmaların burada saxlanması idi. Qədim əlyazmalarla maraqlanan dostu Nikkolo Nikkolinin 1437-ci ildə ölümündən sonra Kozimo əlyazmaları San Marko monastrına göndərdi. 1497-ci ildə Mediçi ailəsinin sürgünü zamanı şəxsi kitabxana şəhərin səlahiyyətinə keçir. 1512-ci ildə Mediçilər həm hakimiyyəti, həm də kitabxanalarını geri qaytardılar.

Mediçi Kitabxanası Laurenziana Fondu 150 000 kitab, 11 000 əlyazma və 2 500 papirusa sahibdir.

*Gülər ƏZİZOVA*

# Azərbaycan vətəndaşları hansı valyutaya etibar edir?

**“İqtisadi təşəbbüslərə dəstək” İctimai Birliyinin eksperti Samir Əliyev bildirmişdir: “Azərbaycanda əcnəbi valyuta dedikdə ağıla ilk olaraq ABŞ dolları gəlir. Bu situasiya dünyanın bir çox ölkələrində müşahidə edilir.**



Dollar bütün parametrlərinə görə əcnəbi valyuta kimi Azərbaycanda lider mövqedədir. Bu əcnəbi valyutalar ilə edilən yatırımlara və kreditlərə də aiddir. Hətta vətəndaşlar daşınmaz əmlak alıb-satarkən ya dollar, ya da manatdan istifadə edirlər. Bu da o deməkdir ki, vətəndaşlarımız əcnəbi valyuta olaraq dollara üstünlük verir. Avroya gəldikdə isə, onu deməliyəm ki, o dollar və rus rublundan sonra üçüncü pilləni tutur. Rus rublu isə Rusiyaya tez-tez gedən vətəndaşlar tərəfindən istifadə edilir. Avro isə adətən turistik məqsədlərlə istifadə olunur. Ölkə daxilində alış-satış əməliyyatlarında bu valyuta, demək olar ki, istifadə edilmir. Lakin buna baxmayaraq, Avropanın məhz bu valyutadan istifadə etməsi səbəbilə avroya etibar mövcuddur.

Bununla yanaşı, son illər avro məzənnəsində qeyri-sabitlik müşahidə olunur. İlk olaraq valyutanın məzənnəsi qalxdı, sonra endi və daha sonra yenə qalxdı. Məsələn, manatın məzənnəsi sabitdir və buna görə də ona daha çox üstünlük verilir. Bir sözlə desək, avroya etibar mövcud olsa da, dollara olan etibar qədər yüksək deyil.

Avropada da avro avropalılar tərəfindən siyasi dəstəyini itirməkdədir. Bir çox proqnozlara görə, yeni Avropa parlamentinin tərkibinə ya Brüsselin səlahiyyətlərini məhdudlaşdırmaq, ya da Avropa İttifaqının tamamilə aradan qaldırılması və milli dövlətlərə qayıdış tərəfdarı olan siyasətçilər daxil olacaq. Avro skeptiklərinin uğuru bir çox hallarda Aİ-də və zonanın vahid val-yutası olan avroda baş verən iqtisadi sarsılmalar ilə bağlıdır.

Avro da ABŞ dolları ilə yanaşı, dünyanın ehtiyat valyutalarından biridir. 2014-cü ilin mayında Avropa parlamentində Avropa İttifaqı vətəndaşları avro skeptiklərə səs versə və Avropa parlamentinin fəaliyyətini dayandıra bilsə, sözügedən bu addım vahid valyutaya olan etibara ağır zərbə endirəcək. Avronun siyasi layihə olduğunu unutmaq lazım deyil və Avropa milli orqanlarına “yox” demək vahid valyutaya da “yox” deməkdir.

*www.banker.az*

## “Qafqaz İnkişaf Bankı” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının MƏLUMATI

**31.07.2014-cü il tarixdə, saat 10:00-da** “Qafqaz İnkişaf Bankı” ASC-nin Bakı şəhəri Ə.Naxçıvani 25, bina 2, giriş1.2. ünvanda yerləşən Mərkəzi ofisində “Qafqaz İnkişaf Bankı” ASC-nin səhmdarlarının 2013-cü maliyyə ilinin yekunlarına həsr olunmuş növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

- İdarə Heyətinin hesabatı;
- Müşahidə Şurasının hesabatı;
- Kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş “Qafqaz İnkişaf Bankı” ASC-nin 2013-cü ilin yekunları üzrə maliyyə hesabatının təsdiq olunması, xalis mənfəət hesabına ehtiyatların yaradılması, dividentlərin ödənilməsi;
- Digər məsələlər.

**Ünvan: Bakı şəhəri Ə.Naxçıvani 25, bina 2, giriş1.2.**
**Telefon: 012-505-85-15 Faks: 012-505-84-59**

## Etibarsızdır

Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı idarəsi tərəfindən Qiyasbəyli Zəkiyyə Nadir qızının adına Rəsul Rza küçəsi 18, mənzil 102 ünvanına verilən qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağayevə Zərxanım Əbülfəz qızının adına Bakı şəhəri, Səbail rayonu Nizami kücəsi ev 96, mənzil 43 ünvanına verilmiş kupça itdiyi üçün etibarsız sayılır.

Sultanov İldırım Məmmədbağır oğlunun adına Yeni Suraxanı qəsəbəsi, Kirov küçəsi ev11, ünvanına verilən kupça itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə Azərbaycan Həkarlar İttifaqları Konfederasiyasının sədri Milli Məclisin deputatı Səttar Mehbaliyevə əzizi **ABDULLA MÜƏLLİMİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimova anası **QUMRU XANIMIM** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Məmmədhəsən Meybullayev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 3
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
“İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Zaman-Azər” MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3300